**Azərbaycan Respublikası**
**Milli Təhlükəsizlik Nazirliyinin Akademiyası**

# MTN:
# TARİXİ-HÜQUQİ MƏNBƏLƏR
# (1991 - 2004)

**MTN Akademiyasının Elmi Şurasının 22.04.2005-ci il tarixli iclasının qərarı ilə nəşrə tövsiyə olunmuşdur.**

**Bakı -2005**

downloaded from KitabYurdu.org

***T ə r t i b ç i l ə r:***
**Filologiya elmləri doktoru Cəlal Qasımov**
**Araz Aşurov**

**Kitaba 1991-ci ildən 2004-cü ilə qədər Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi ilə əlaqədar imzalanmış fərman, sərəncam və normativ-hüquqi aktlar daxil edilmişdir. Bu sənədlər «Azərbaycan Respublikası Ali Sovetinin məlumatı», «Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları», «Azərbaycan Respublikasının Qanunvericilik Toplusu», «Xalq qəzeti» və «Azərbaycan» qəzetindən götürülmüşdür.**

© AR MTN Akademiyasının nəşriyyatı, 2005



downloaded from KitabYurdu.org

## *Ön söz*

*Azərbaycan Respublikası öz müstəqilliyini elan etdikdən bir qədər sonra Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə 1991-ci il noyabrın 1-də Dövlət Təhlükəsizlik Komitəsinin maddi-texniki bazası əsasında Milli Təhlükəsizlik Nazirliyi (MTN) təsis olundu. Həmin qərara əsasən Milli Təhlükəsizlik Nazirliyi bilavasitə Azərbaycan Respublikasının Prezidentinə tabe edildi.*

*Az müddət ərzində MTN-in milli kadrlarla komplektləşdirilməsi dövrü başlandı və bu orqanda milli kadrlar üstünlük təşkil etdi. Məsələ MTN-i yalnız milli kadrlarla təmin etməklə bitmirdi, bu qurumun fəaliyyət istiqamətlərində, iş strukturlarında da yeniləşmə getməli, köhnə stereotipləri dağıdıb yeni islahatlar həyata keçirmək lazım idi. Deməli, nazirliyin yalnız adını və şəxsi heyətini deyil, eyni zamanda onun qarşısında duran vəzifələrin məzmununu və mahiyyətini də yeniləşdirmək zərurəti yaranmışdı. Bunun üçün hər şeydən əvvəl xüsusi xidmət orqanlarının fəaliyyətini tənzimləyən yeni normativ-hüquqi sənədlərin hazırlanmasına və icrasına böyük ehtiyac duyulurdu.*

*Cəsarətlə demək olar ki, Milli Təhlükəsizlik Nazirliyinin işini tənzimləyən normativ-hüquqi sənədlərin hazırlanmasında və onların icrasına nəzarətdə ən böyük rolu ömrünün 25 ilini bu sahədə fəaliyyətə həsr etmiş milli öndərimiz Heydər Əliyev oynadı.*

*Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinin bütün imkanları və potensialı ümumilikdə sovet dövlətinin strateji maraqlarının, eləcə də ideologiyasının təminatına yönəlmişdisə, milli öndərimizin səyi və rəhbərliyi nəticəsində bu orqanın əsas mübarizə və xidmət istiqamətləri də müəyyənləşdi. Artıq bu orqan fəaliyyətini xalqın milli maraqlarına uyğun qurmağa, bu maraqları müdafiə və mühafizə etməyə başladı.*



downloaded from KitabYurdu.org

*Bu təşkilatın əsas vəzifəsi müstəqil Azərbaycan Respublikasının suverenliyinə, konstitusiya quruluşuna, dövlətçiliyin möhkəmləndirilməsinə, iqtiisadi yüksəlişin artmasına, xalqın milli-mənəvi dəyərlərinə, tarixinə, mədəniyyətinə, adət-ənənələrinə xor baxanlara, eyni zamanda terror-təxribat aksiyalarının, xarici pozucu quvvələrin, xüsusilə də ermənilərin yeritdiyi separatçı siyasətin qarşısının alınmasına, ölkəmizin milli maraqlarına zidd olan pozuculuq aksiyalarına və digər həyati əhəmiyyətli məsələlərin həllinə yönəldildi.*

*Müstəqilliyini əzmlə möhkəmləndirən, demokratik prinsiplərə söykənərək sivil, hüquqi dövlət quruculuğu yolunda dönməzliyini sübuta yetirən Azərbaycan Respublikası bu gün öz dövlətçilik ənənələrini daha da inkişaf etdirərək etibarlı gələcəyi, əbədiyaşarlığı üçün sarsılmaz təməl yaradır. Bu sahədə üzərinə mühüm vəzifələr düşən Milli Təhlükəsizlik Nazirliyi Azərbaycan xalqının ən böyük nailiyyəti olan dövlət müstəqilliyinin qorunub saxlanılmasında, daha da möhkəmləndirilməsində ümummilli liderimiz Heydər Əliyevın ən yaxın köməkçisi olmuşdur. Milli Təhlükəsizlik Nazirliyi ölkənin və xalqın təhlükəsizliyinin təmin edilməsi ilə yanaşı, müstəqil respublikamızın sələfi olan Azərbaycan Xalq Cümhuriyyətindən miras qalmış milli-mənəvi dəyərlərin qorunması, irslə varis arasındakı bağların bərpası istiqamətində də xeyli uğurlar qazanmışdır. Belə demək mümkünsə, MTN milli öndərimiz Heydər Əliyevin rəhbərliyi altında yalnız keçmişin mütərəqqi ənənələrinin və müasir dövlətimizin təhlükəsizliyi keşiyində dayanmamış, həm də sabahın, gələcəyin təminatçısı funksiyasını ləyaqətlə yerinə yetirməyə çalışmışdır.*

*İnamla demək olar ki, məhz Heydər Əliyevin siyasi kursu Azərbaycanı hüquqi, demokratik, dünyəvi dövlət kimi Avropaya inteqrasiya edir, qloballaşmaya aparır. Müasir, çağdaş*



downloaded from KitabYurdu.org

*sivilizasiyalı yol da qloballaşmadan keçir. Bəşəriyyət də vahid vücud və vahid orqanizm kimi öz təhlükəsizliyinə ən demokratik təminatı da qloballaşmada görür. Ona görə də dünyanın əksər aparıcı dövlətlərinin və onların xüsusi xidmət orqanlarının diqqət mərkəzində duran terrorçuluqla mübarizə məsələsi Azərbaycan təhlükəsizlik orqanları üçün də mühüm əhəmiyyət kəsb edir. Azərbaycan dəfələrlə erməni terroruna məruz qaldığından və xeyli itkilər verdiyindən bu bəlanın yalnız Azərbaycan üçün deyil, bəşəriyyət üçün nə qədər təhlükəli olduğunu yaxşı bilir. Terror o zaman daha qorxulu və daha kütləvi olur ki, o ermənilərdə olduğu kimi dövlət səviyyəsində həyata keçirilir.*

*MTN-in dünyanın bir çox ölkələrinin xüsusi xidmət orqanları ilə terrorçuluğa, narkobiznesə, mütəşəkkil cinayətkarlığın digər formalarına qarşı mübarizə sahəsində beynəlxalq əlaqələrini ildən-ilə genişləndirməsi də bu təhlükənin tamamilə aradan qaldırılmasına xidmət edir.*

*Son bir ildə qəbul edilmiş normativ-hüquqi aktlar, (Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Əsasnaməsi, «Milli təhlükəsizlik haqqında», «Dövlət sirri haqqında» və s.) MTN-in fəaliyyətini və onun hüquqi bazasını tənzimləməklə yanaşı, bu aktların milli maraqlara və bəşəri dəyərlərə sədaqətini də ifadə edir.*

*Əlbəttə, kiçik bir ön sözdə nazirliyin qarşısında duran vəzifələr barəsində geniş və təfsilatı ilə məlumat vermək mümkün deyil və bu bizim məqsədimiz də deyil. Lakin bir məsələni xüsusilə qeyd etmək istərdik. Milli öndərimiz Heydər Əliyevin ölkədə yaratdığı sabitlik nəticəsində MTN-də əməliyyat işi ilə yanaşı, elmi-tədqiqat işləri ilə də mütəmadi məşğul olunur. Bunun nəticəsidir ki, təhlükəsizlik orqanlarının tarixi, Azərbaycan xalqının repressiyalara məruz qalmalarının*



downloaded from KitabYurdu.org

*və azərbaycanlıların tarixi torpaqlarımızdan deportasiyasının səbəbləri MTN əməkdaşları tərəfindən tədqiq edilmiş, bu problemlərlə bağlı 30-dan çox kitab, 100-dən çox məqalə çap edilmiş, respublikanın müxtəlif elm-təhsil müəssisələrində məruzələr oxunmuş və Azərbaycan xüsusi xidmət orqanlarının tarixini və fəaliyyətini əks etdirən sənədli filmlər çəkilmişdir. Heydər Əliyevin təşəbbüsü ilə yaradılan MTN Akademiyası fəaliyyətə başladıqdan sonra çap olunan dərslik və dərs vəsaitlərinin sayı xeyli artmışdır.*

*Çapa hazırladığımız bu topluda 1991-ci ildən 2004-cü ilə kimi respublika rəhbərləri və Milli Məclis tərəfindən Milli Təhlükəsizlik Nazirliyi ilə əlaqədar qəbul edilmiş qanunlar, imzalanmış fərman və sərəncamlar toplanmışdır. Fikrimizcə, bu kitabın işıq üzü görməsi Azərbaycanın dövlət başçılarının xüsusi xidmət orqanlarına yetirdiyi diqqət və qayğısı, təhlükəsizlik orqanlarının dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində gördüyü işlərin əhəmiyyəti, eyni zamanda Azərbaycanın belə mühüm bir təşkilatının tarixinin öyrənilməsi baxımından çox əhəmiyyətlidir.*

***Tərtibçilər***



downloaded from KitabYurdu.org

**Azərbaycan Respublikası**
**Dövlət Təhlükəsizliyi Komitəsinin**
**Azərbaycan Respublikası**
**Milli Təhlükəsizlik Nazirliyinə çevrilməsi**
**haqqında**

**Azərbaycan Respublikasının**
**QANUNU**

Azərbaycan Respublikasının Ali Soveti **qərara alır:**

1. Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Komitəsi Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinə çevrilsin.
2. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi bilavasitə Azərbaycan Respublikasının Prezidentinə tabe edilsin.
3. Azərbaycan Respublikasının Prezidentinə təklif edilsin ki, Azərbaycan Respublikasının milli təhlükəsizlik orqanları haqqında Qanunun layihəsini Azərbaycan Respublikası Ali Sovetinin müzakirəsinə versin.

**Azərbaycan Respublikasının Prezidenti**
**A.MÜTƏLLİBOV**
Bakı şəhəri, 1 noyabr 1991-ci il



downloaded from KitabYurdu.org

**İ.P.Hüseynov yoldaşın**
**Azərbaycan Respublikasının**
**milli təhlükəsizlik naziri təyin edilməsi haqqında**

**Azərbaycan Respublikası Prezidentinin**
**FƏRMANI**

İlhüseyn Pirhüseyn oğlu **Hüseynov** yoldaş Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri təyin edilsin.

Fərman baxılmaq üçün Azərbaycan Respublikasının Ali Sovetinə təqdim edilsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**A. MÜTƏLLİBOV**
Bakı şəhəri, 7 noyabr 1991-ci il



downloaded from KitabYurdu.org

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi və Milli Təhlükəsizlik Nazirliyi sistemlərində kollegiyaların ləğv edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Daxili işlər və milli təhlükəsizlik orqanlarını təkmilləşdirmək və onların təşkilat strukturunu möhkəmləndirmək, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin və Milli Təhlükəsizlik Nazirliyinin fəaliyyətində təkbaşçılıq prinsipinin bərqərar olmasını təmin etmək məqsədi ilə **qərara alıram**:

1. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi və Milli Təhlükəsizlik Nazirliyi sistemlərində kollegiyalar ləğv edilsin.
2. Azərbaycan Respublikasının daxili işlər nazirinə və milli təhlükəsizlik nazirinə xidmət fəaliyyətinin müxtəlif məsələləri barədə tövsiyələr hazırlayan məşvərətçi orqan yaratmaq hüququ verilsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**A.Mütəllibov**
Bakı şəhəri, 11 dekabr 1991-ci il.



downloaded from KitabYurdu.org

## Azərbaycan Respublikasının silahlı qüvvələrində və sərhəd qoşunlarında xidmətdə olan hərbi qulluqçuların, Azərbaycan Respublikasının silahlı qüvvələrinə toplanışa çağırılmış hərbi vəzifəlilərin, Azərbaycan Respublikası qanunvericiliyinə müvafiq surətdə yaradılmış digər qoşun birləşmələrinin şəxsi heyətinin, Azərbaycan Respublikası Milli Təhlükəsizlik və Daxili İşlər Nazirliklərinin rəis və sıravi heyətinin dövlət tərəfindən mütləq şəxsən sığortalanması haqqında

## Azərbaycan Respublikasının Prezidentinin FƏRMANI

Azərbaycan Respublikasının silahlı qüvvələrində və sərhəd qoşunlarında xidmətdə olan hərbi qulluqçuların, Azərbaycan Respublikasının silahlı qüvvələrinə toplanışa çağırılmış hərbi vəzifələrinin, Azərbaycan Respublikası qanunvericiliyinə müvafiq surətdə yaradılmış digər qoşun birləşmələrinin şəxsi heyətinin, Azərbaycan Respublikası milli təhlükəsizlik və daxili işlər nazirliklərinin rəis və sıravi heyətinin sosial müdafiəsinə təminat yaratmaq məqsədilə **qərara alıram:**

Azərbaycan Respublikasının Nazirlər Kabineti 1992-ci il fevralın 20-dək:

«Azərbaycan Respublikasının silahlı qüvvələri haqqında» Azərbaycan Respublikasının qanununa müvafiq surətdə Azərbaycan Respublikasının silahlı quvvələrində və sərhəd qoşunlarında xidmətdə olan hərbi qulluqçuların, Azərbaycan Respublikasının silahlı qüvvələrinə toplanışa çağırılmış hərbi vəzifəlilərin, Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə yaradılmış digər qoşun



downloaded from KitabYurdu.org

birləşmələrinin şəxsi heyətinin hərbi xidmət vəzifələrinin icrası (toplanış) dövründə bədbəxt hadisələrdən dövlət tərəfindən mütləq şəxsən sığortalanımasının qaydasını, şərtlərini və sığorta haqqının məbləğlərini müəyyənləşdirib təsdiq etsin;

Azərbaycan Respublikası milli təhlükəsizlik və daxili işlər nazirliklərinin rəis və sıravi heyətinin xidməti vəzifələrinin yerinə yetirilməsi ilə bağlı bədbəxt hadisələrdən dövlət tərəfindən mütləq şəxsən sığortalanmasının qaydasını, şərtlərini və sığorta haqqının məbləğlərini müəyyənləşdirib təsdiq etsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**A.MÜTƏLLİBOV**
Bakı şəhəri, 8 fevral 1992-ci il



downloaded from KitabYurdu.org

## İ.P.Hüseynovun Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

İlhüseyn Pirhüseyn oğlu **Hüseynov** yoldaş Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri vəzifəsindən azad edilsin.

**Azərbaycan Respublikası Prezidentinin**
**səlahiyyətini həyata keçirən**
**Azərbaycan Respublikası Ali Sovetinin sədri**
**Y.MƏMMƏDOV**
Bakı şəhəri, 16 may 1992-ci il.



downloaded from KitabYurdu.org

## F.A.Təhməzovun Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

Fəxrəddin Ayat oğlu **Təhməzov** Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri təyin edilsin.

Bu Fərman Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının müzakirəsinə verilsin.

**Azərbaycan Respublikasının Prezidentinin**
**səlahiyyətini həyata keçirən**
**Azərbaycan Respublikası Ali Sovetinin sədri**
**Y. MƏMMƏDOV**
Bakı şəhəri, 16 may 1992-ci il



downloaded from KitabYurdu.org

**S.B.Əkbərovun**
**Azərbaycan Respublikası**
**milli təhlükəsizlik nazirinin birinci müavini**
**təyin edilməsi haqqında**

**Azərbayjan Respublikası Prezidentinin**
**SƏRƏNCAMI**

Sülhəddin Bayram oğlu **Əkbərov** Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin birinci müavini təyin edilsin.

**Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini**
**həyata keçirən**
**Azərbaycan Respublikası Ali Sovetinin sədri**
**Y.Məmmədov**
Bakı şəhəri, 16 may 1992-ci il.



downloaded from KitabYurdu.org

## Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri F.A.Təhməzova general-mayor əsgəri rütbəsi verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Fəxrəddin Ayat oğlu **Təhməzova** general-mayor əsgəri rütbəsi verilsin.

**Azərbaycan Respublikası Prezidentinin**
**səlahiyyətini həyata keçirən**
**Azərbaycan Respublikası Ali Sovetinin sədri**
**İsa QƏMBƏROV**
Bakı şəhəri, 23 may 1992-ci il



downloaded from KitabYurdu.org

## Azərbaycan Respublikası
## Müdafiə Nazirliyinin hərbi qulluqçularına «Azərbaycanın Milli Qəhrəmanı» adı verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin
## FƏRMANI

Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində şəxsi igidlik və şücaət göstərdirklərinə görə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçularına **"Azərbaycanın Milli Qəhrəmanı"** adı verilsin (ölümündən sonra).

Əhmədov Riad Fikrət oğlu - podpolkovnik

**Azərbaycan Respublikası Prezidentinin**
**səlahiyyətini həyata keçirən**
**Azərbaycan Respublikası**
**Ali Sovetinin Sədri**
**İsa QƏMBƏROV**
Bakı şəhəri, 7 iyun 1992-ci il



downloaded from KitabYurdu.org

**Azərbaycan Respublikası**
**Dövlət sərhədinin mühafizəsini**
**gücləndirmək tədbirləri haqqında**

**Azərbaycan Respublikası Prezidentinin**
**FƏRMANI**

Azərbaycan Respublikasının dövlət suverenliyini qorumaq, Azərbaycan Respublikası dövlət sərhədinin mühafizəsini təmin etmək məqsədi ilə «Azərbaycan Respublikasının dövlət sərhədi haqqında» Qanunu əsas tutaraq **qərara alıram**:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti «Azərbaycan Respublikasının dövlət sərhədi haqqında» Qanunun tələblərindən irəli gələn aşağıdakı vəzifələri yerinə yetirsin:

a) Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrində sərhəd mühafizə dəstəsinin nəzarət-buraxılış məntəqələrini, gömrük, sanitariya-karantin, baytarlıq, fitosanitariya və sənətşünaslıq idarələrini (nəzarət qruplarını) yaratsın;

b) Azərbaycan Respublikası Dövlət Sərhədini Mühafizə Komitəsinin təqdimatına əsasən Azərbaycan Respublikası dövlət sərhədinin müvafiq hissələri üzrə Azərbaycan Respublikasının sərhəd nümayəndələrini təyin etsin;

v) sərhəd rejimi qaydaları əks olunmaqla 10 gün müddətində sərhədboyu zona və sərhədboyu zolaq müəyyən etsin;

q) bir həftə müddətində Azərbaycan Respublikası dövlət sərhədinin müvafiq hissələrində buraxılış məntəqələrində rejim qaydalarını müəyyən etsin; sadələşdirilmiş buraxılış



downloaded from KitabYurdu.org

məntəqələrin yeni qaydaları haqqında qərar layihəsini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

ğ) Azərbaycan Respublikasının ərazi və daxili sularında özü hərəkət edən və özü hərəkət etməyən gəmilərin üzməsi və saxlanması, habelə bu sularda balıq ovlanması qaydalarını müəyyən etsin;

d) Azərbaycan Respublikasının dövlət sərhədini pozan hava gəmilərinə və başqa uçuş aparatlarına, xarici hərbi gəmilərə, o cümlədən sualtı qayıqlara qarşı sərhəd qarovulu tərəfindən silah və döyüş texnikası tətbiqi qaydalarını müəyyən etsin;

e) Azərbaycan Respublikasının hava hücumundan müdafiə qoşunları, hərbi dəniz donanması, silahlı qüvvələrin başqa hissələri və bölmələri xarici dövlətlərin qoşun qruplarının və quldur dəstələrinin Azərbaycan Respublikası ərazisinə silahlı basqınını dəf etməkdə, Azərbaycan Respublikasının dövlət sərhədində silahlı fitnələrin qarşısını almaqda sərhəd qarovuluna kömək göstərərkən, habelə Azərbaycan Respublikasının dövlət sərhədini pozan hava gəmilərinə və başqa uçuş aparatlarına, xarici hərbi gəmilərə, o cümlədən Azərbaycan Respublikasının ərazi və daxili sularında sualtı vəziyyətdə aşkar edilmiş sualtı qayıqlara qarşı silah və döyüş texnikası tətbiqi qaydalarını müəyyən etsin;

ə) bu il dekabr ayının 31-dək dövlət sərhədindən buraxılış məntəqələrində sərhəd, gömrük, sanitariya-karantin, baytarlıq və fitosanitariya nəzarətini, Azərbaycan Respublikasından bədii, tarixi və başqa mədəni sərvətlərin aparılmasına nəzarəti həyata keçirmək üçün lazımi binalar tikilməsini, bu il sentyabr ayının 20-dək isə sərhəd mühafizə dəstəsinin nəzarət-buraxılış məntəqələrini, gömrük idarə-



downloaded from KitabYurdu.org

lərini və şəxslərin, nəqliyyat vasitələrinin, yüklərin və başqa əmlakın Azərbaycan Respublikasının dövlət sərhədindən keçməsinə nəzarət edən digər idarələri yerləşdirmək üçün xidmət otaqları ayrılmasını təmin etsin;

c) bu il sentyabr ayının 10-dək Azərbaycan Respublikasının dövlət sərhədi boyunca mal-qara saxlanması və otarılması qadağan edilən profilaktika zolağını və baytarlıq sanitariya rejimini müəyyən etsin;

z) Azərbaycan Respublikasının dövlət sərhədində hava, uçuş dəhlizlərinin ayrılması qaydalarını, xarici hərbi gəmilərin Azərbaycan Respublikasının daxili sularına girməsi qaydalarını, tutulmuş xarici qeyri-hərbi gəmilərin müvafiq xarici dövlətlərin səlahiyyətli nümayəndələrinə təhvil verilməsi qaydalarını müəyyən etsin.

II. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi sərhəd məsələləri ilə bağlı dövlətlərarası müqavilələrin imzalanması məqsədi ilə Azərbaycan Respublikası ilə həmsərhəd dövlətlər arasında danışıqlara başlasın.

III. Azərbaycan Respublikasının Dövlət Sərhəd Mühafizəsi Komitəsi:

a) bu il sentyabr ayının 15-dək «Azərbaycan Respublikasının dövlət sərhədi haqqında» Qanunun 29-cu maddəsinin tələblərindən irəli gələn tədbirləri həyata keçirsin;

b) sərhədboyu zonaya və sərhədboyu zolağa giriş qaydalarına riayət olunmasını təmin etsin;

2 həftə müddətində Azərbaycan Respublikasının dövlət sərhədində təsərrüfat fəaliyyətinin qaydalarını müəyyən etsin;

v) 10 gün müddətində Gömrük Komitəsi və gömrük polisi ilə birlikdə sərhəddən buraxılış məntəqələrində və



downloaded from KitabYurdu.org

sadələşdirilmiş buraxılış məntəqələrində birgə fəaliyyəti tənzimləyən əmr imzalasın.

IV. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi:

a) Azərbaycan Respublikası dövlət sərhədinin havada və dənizdə qorunmasını hava hücumundan müdafiə qoşunlarının və Xəzər Hərbi Dəniz Donanmasının qüvvələri hesabına təmin etsin. Bu vəzifəni yerinə yetirərkən Azərbaycan Respublikasının Dövlət Sərhədini Mühafizə Komitəsi ilə razılaşdırılmış əlaqəli tədbirlər həyata keçirsin;

b) Azərbaycan Respublikası sərhəd qoşunları hissələrinin müddətli xidmət çağırışçıları ilə təmin edilməsi işini xüsusi nəzarətə götürsün; Azərbaycan Respublikasının Hərbi Komissarlığı sərhəd qoşunlarını müddətli xidmət çağırışçıları ilə tələbata uyğun olaraq vaxtlı-vaxtında təmin etsin;

v) Azərbaycan Respublikasının Qanunlarını və ya Azərbaycan Respublikasının ərazi və daxili sularında üzmək və olmaq qaydalarını pozmuş xarici hərbi gəmilərə tətbiq oluna biləcək xüsusi qaydaların layihəsini təsdiq edilmək üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

q) xarici hərbi gəmilərin, habelə sualtı qayıqların dinc məqsədlə Azərbaycan Respublikasının ərazi sularından keçməsi qaydalarının layihəsini təsdiq edilmək üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

V. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi:

Azərbaycan Respublikası dövlətinin təhlükəsizliyinə qarşı yönəldilmiş hər hansı təxribatın qarşısının alınması, xarici kəşfiyyat orqanları ilə əməkdaşlıq edən şəxslərin üzə çıxarılması və ifşa edilməsi sahəsində fəaliyyəti gücləndirsin.


downloaded from KitabYurdu.org

VI. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi:

a) «Azərbaycan Respublikasında xarici vətəndaşların hüquqi vəziyyəti haqqında» Qanun qəbul edilənə qədər 10 gün müddətində Azərbaycan Respublikası ərazisində xarici vətəndaşların qalması, yaşaması ilə bağlı məsələlərlə əlaqədar respublika polis orqanlarının fəaliyyətini nizamlayan əmr versin və həmin əmrdə xarici vətəndaşlara aid tədbirlərin milli təhlükəsizlik orqanları ilə sıx əlaqədə keçirilməsini nəzərdə tutsun;

b) Azərbaycan Respublikasının Dövlət Sərhədini Mühafizə Komitəsi ilə birlikdə pasport-sərhəd rejimi məsələlərini 2 həftə müddətində təsdiq etsin.

VII. Azərbaycan Respublikasının gömrük polisinə öz səlahiyyət dairəsində sərhədboyu zolaqda Azərbaycan Respublikasının Dövlət Sərhədini Mühafizə Komitəsi ilə əlaqəli fəaliyyət göstərmək imkanı verilsin. Respublikanın gömrük polisi orqanlarının aşkar etdikləri cinayət xarakterli faktlar üzrə mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq təhqiqat və ibtidai istintaq aparmaq həmin orqanların müvafiq bölmələrinə tapşırılsın.

VIII. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi:

«Azərbaycan Respublikasının dövlət sərhədi haqqında» qanunundan irəli gələn və həmin qanunun istinad etdiyi, lakin Azərbaycan Respublikasının qanunvericilik orqanları tərəfindən indiyədək qəbul olunmayan qanunvericilik aktlarının siyahısını müəyyən etsin, onların layihəsini əlaqədar orqanlarla birlikdə hazırlayıb Azərbaycan Respublikasının hüquq siyasəti üzrə dövlət müşavirinə təqdim etsin.

IX. Azərbaycan Respublikasının baş prokuroru:

«Azərbaycan Respublikasının dövlət sərhədi haqqında» Qanunun və dövlət sərhədi ilə bağlı bütün qanunvericilik



downloaded from KitabYurdu.org

aktlarının tələblərinə Azərbaycan Respublikası ərazisində təşkilatlar, müəssisələr, idarələr, bütün huquqi və fiziki şəxslər tərəfindən riayət olunmasını, dövlət sərhədi haqqında qanunvericiliyin pozulmasında təqsiri olan şəxslərin Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə cinayət, inzibati, maddi və intizam məsuliyyətinə cəlb edilmələrini təmin etsin.

X. Azərbaycan Respublikasının qonşu dövlətlərlə sərhədboyu rayonlarının icra hakimiyyəti başçıları:

a) Azərbaycan Respublikasının dövlət sərhədində hər növ təsərrüfat fəaliyyətinin müvafiq qaydalara uyğun olaraq, səlahiyyətli orqanlarla razılıq əsasında həyata keçirilməsini təmin etsinlər;

b) sərhədboyu rayonlarda dövlət orqanları, ictimai təşkilatlar, vəzifəli şəxslər və vətəndaşlar tərəfindən sərhəd rejiminə əməl olunmasını, dövlət sərhədinin qorunmasında sərhəd qarovuluna onlar tərəfindən hərtərəfli kömək göstərilməsini təmin etsinlər.

XI. «Azərbaycan Hava Yolları» Dövlət Konserninə «Aeronaviqasiya məlumatları məcmuəsi»nin və Xəzər Dəniz Gəmiçiliyi İdarəsinə «Dəniz gəmiçilərinə bildiriş»in nəşri ilə əlaqədar tədbirlər görülməsi tapşırılsın.

XII. Azərbaycan Respublikasının Dövlət Teleradio Şirkətinə və kütləvi informasiya vasitələrinə sərhədin mühafizəsi problemlərini müntəzəm işıqlandırmaq tövsiyə olunsun.

Azərbaycan Respublikası Dövlət Mətbuat Komitəsi Azərbaycan Respublikası Dövlət Sərhədini Mühafızə Komitəsinin mətbuat orqanı olan «Sərhəd» qəzetinin buraxılışı ilə əlaqədar məsələləri bu il avqust ayının 30-dək həll etsin.



downloaded from KitabYurdu.org

XIII. Bu fərmanın icrasına nəzarət Azərbaycan Respublikasının hüquq siyasəti üzrə dövlət müşavirinin xidmətinə tapşırılsın.

**Azərbaycan Respublikasının Prezidenti**
**Əbülfəz ELÇİBƏY**
Bakı şəhəri, 27 avqust 1992-ci il.



downloaded from KitabYurdu.org

**F.S.Allahverdiyevə, E.H.Əliyevə, R.T.Mənsurova «Azərbaycan Respublikasının əməkdar hüquqşünası» fəxri adı verilməsi haqqında**

**Azərbaycan Respublikası Prezidentinin FƏRMANI**

Respublikanın hüquq-mühafizə orqanlarında uzun illər səmərəli işlədiklərinə və 20-50-ci illərin qanunsuz siyasi repressiyalarına məruz qalanlara tamamilə və aşkar bəraət verilməsinə və onların təmiz adının bərpa edilməsinə yardım işində xidmətlərinə görə aşağıdakılara «Azərbaycan Respublikasının əməkdar hüquqşünası» fəxri adı verilsin:

**Allahverdiyev** Faiq Seyid oğlu – Respublika Prokurorluğunun prokuroru

**Əliyev** Eynal Hacı oğlu - Respublika Prokurorluğunun prokuroru

**Mənsurov** Rüfət Talıb oğlu – Respublika Milli Təhlükəsizlik Nazirliyinin şöbə rəisinin müavini

**Azərbaycan Respublikasının Prezidenti**
**Əbülfəz ELÇİBƏY**
Bakı şəhəri, 14 sentyabr 1992-ci il.



downloaded from KitabYurdu.org

**F.A.Təhməzovun Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri təyin edilməsi haqqında**

**Azərbaycan Respublikası Prezidentinin FƏRMANI**

Azərbaycan Respublikası Milli Məclisinin razılığına əsasən Fəxrəddin Ayat oğlu **Təhməzov** Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri təyin edilsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**Əbülfəz ELÇİBƏY**
Bakı şəhəri, 12 may 1993-cü il



downloaded from KitabYurdu.org

## F.A.Təhməzov və N.R.Abbasov haqqında

## Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

Fəxrəddin Ayat oğlu **Təhməzov** Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri vəzifəsindən azad edilsin.

Həmin vəzifənin icrası milli təhlükəsizlik nazirinin müavini Namiq Rəşid oğlu **Abbasova** həvalə edilsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**Əbülfəz ELÇİBƏY**
Bakı şəhəri, 17 iyun 1993-cü il



downloaded from KitabYurdu.org

## N.R.Abbasovun Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri vəzifəsinin icrasından azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini Namiq Rəşid oğlu **Abbasov** Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri vəzifəsinin icrasından azad edilsin.

**Azərbaycan Respublikası Prezidentinin**
**səlahiyyətini həyata keçirən**
**Azərbaycan Respublikası**
**Ali Sovetinin Sədri**
**Heydər ƏLİYEV**
Bakı şəhəri, 3 iyul 1993-cü il



downloaded from KitabYurdu.org

## N.Ş.İmranovun Azərbaycan Respublikası milli təhlükəsizlik naziri təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

Azərbaycan Respublikasının Milli Məclisinin razılığına əsasən Nəriman Şamo oğlu **İmranov** Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri təyin edilsin.

**Azərbaycan Respublikası Prezidentinin**
**səlahiyyətini həyata keçirən**
**Azərbaycan Respublikası**
**Ali Sovetinin Sədri**
**Heydər ƏLİYEV**
Bakı şəhəri, 3 iyul 1993-cü il



downloaded from KitabYurdu.org

## İ.İ.Allahverdiyev haqqında

## Azərbaycan Respublikası Prezidentinin
## SƏRƏNCAMI

İsgəndər İmamverdi oğlu **Allahverdiyev** Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin sərəncamında saxlanmaq şərti ilə Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini - Sərhəd Qoşunları İdarəsinin rəisi - Sərhəd Qoşunlarının Komandanı vəzifəsindən azad edilsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV**
Bakı şəhəri, 7 aprel 1994-cü il



downloaded from KitabYurdu.org

## A.R.Novruzov haqqında

## Azərbaycan Respublikası Prezidentinin
## SƏRƏNCAMI

Abbasəli Ramazan oğlu **Novruzov** Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini - Sərhəd Qoşunları İdarəsinin rəisi - Sərhəd Qoşunlarının Komandanı təyin edilsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV**
Bakı şəhəri, 7 aprel 1994-cü il



downloaded from KitabYurdu.org

## N.Ş. İmranova, N.R.Abbasova, A.R.Novruzova general-mayor rütbəsi verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

Polkovnik - Nəriman Şamo oğlu **İmranova**
Polkovnik - Namiq Rəşid oğlu **Abbasova**
Polkovnik - Abbasəli Ramazan oğlu **Novruzova**
general-mayor rütbəsi verilsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV**
Bakı şəhəri, 15 may 1994-cü il



downloaded from KitabYurdu.org

## N.R.Abbasov haqqında

**Azərbaycan Respublikası Prezidentinin**
**SƏRƏNCAMI**

Namiq Rəşid oğlu **Abbasov** başqa işə keçməsi ilə əlaqədar olaraq Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini vəzifəsindən azad edilsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV**
Bakı şəhəri, 15 may 1994-cü il



downloaded from KitabYurdu.org

## N.R.Abbasov haqqında

## Azərbaycan Respublikası Prezidentinin
## SƏRƏNCAMI

Namiq Rəşid oğlu **Abbasov** Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin birinci müavini təyin edilsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV**
Bakı şəhəri, 15 may 1994-cü il



downloaded from KitabYurdu.org

## Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında

## Azərbaycan Respublikasının Prezidentinin FƏRMANI

Son vaxtlar dövlətin iqtisadi, siyasi əsaslarının təhlükəsizliyi, vətəndaşların həyatı, səhhəti və mülkiyyət hüquqları əleyhinə yönəldilən və əsasən mütəşəkkil cinayətkar dəstələr, qanunsuz silahlı birləşmələr və digər cinayətkar ünsürlər tərəfindən törədilən cinayətlərin, o cümlədən terror aktları, təxribat, qəsdən adam öldürmə, banditizm, silahın, döyüş sursatının və partlayıcı maddələrin talanması və digər yollarla ələ keçirilməsi, narkotik maddələrlə bağlı cinayətlərin, maliyyə-kredit fırıldaqlarının və iqtisadi xarakterli sair cinayətlərin çoxalması müşahidə olunur. Cəmiyyətdə rüşvətxorluq və korrupsiya kimi cinayətlərin geniş yayılması xüsusi narahatlıq doğurur və bir sıra vətəndaşlar, o cümlədən vəzifəli şəxslər bu faktları adi bir hal hesab edirlər.

Bir çox hallarda cinayətlərin üstünün açılması üçün zəruri hərəkətləri hüquq-mühafizə orqanlarının lazımi çevikliklə, qanunla müəyyən edilmiş formalarda və vaxtında yerinə yetirməməsi, qanunun nəzərdə tutduğu məcburiyyət tədbirlərinin tətbiqində səhvlərə yol verməsi, öz səlahiyyətlərindən təsirli istifadə etməməsi əhalinin haqlı narazılığına və cəmiyyətdə gərginliyin artmasına səbəb olmuşdur.

Respublikada cinayətkarlığa qarşı mübarizəni gücləndirməyin, qanunçuluğu və hüquq qaydasını möhkəmləndirməyin zəruriliyini nəzərə alaraq **qərara alıram:**



downloaded from KitabYurdu.org

1. Ədliyyə, daxili işlər, milli təhlükəsizlik nazirliklərinə, respublika prokurorluğuna tapşırılsın və Azərbaycan Respublikasının Ali Məhkəməsinə təklif edilsin ki, bir ay ərzində respublikada cinayətkarlığa qarşı mübarizə üzrə dövlət proqramının layihəsini işləyib hazırlasınlar və Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər.

2. Hüquq-mühafizə orqanlarının rəhbərlərinə tapşırılsın ki, idarə, təşkilat və müəssisələrdə rüşvətxorluq faktlarının aşkar edilməsi, belə hallara yol vermiş vəzifəli şəxslərin qanuna müvafiq surətdə cəzalandırılması, rüşvətxorluq faktlarının qarşısının alınması üçün təsirli tədbirlər görsünlər.

Azərbaycan Respublikasının məhkəmələrinə təklif edilsin ki, rüşvətxorluq faktları ilə bağlı açıq və səyyar məhkəmə prosesləri təşkil etsinlər.

3. Prokurorluq, istintaq və təhqiqat orqanlarına təklif edilsin ki, ağır cinayətlər törədən və mütəşəkkil cinayətkar dəstələrin üzvü olan və ya onların törətdiyi cinayətlərdə fəal iştirak edən müttəhimlər barəsində cinayət işləri üzrə ən ciddi qəti imkan tədbiri tətbiq etsinlər.

4. Prokurorluq, daxili işlər və milli təhlükəsizlik orqanlarına tapşırılsın və məhkəmə orqanlarına təklifedilsin ki, ağır cinayətlərin törədilməsində, habelə mütəşəkkil cinayətkar dəstələr tərəfindən törədilmiş cinayətlərlə əlaqəsi olan hüquqi və fiziki şəxslərin maliyyə-təsərrüfat fəaliyyəti, onların banklardakı əmanətləri və hesabları üzrə əməliyyatlar haqqında müvafiq orqanların vəzifəli şəxslərindən, zəruri hallarda qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq sənədləri və məlumatları tələb edib ümumi qaydada alsınlar; belə tələblərin yerinə yetirilməsinə mane olan və ya



downloaded from KitabYurdu.org

bundan yayınan şəxslər barəsində qanunvericiliklə nəzərdə tutulmuş tədbirlər görsünlər.

5. Azərbaycan Respublikasının Prokurorluğu, müdafiə, daxili işlər və milli təhlükəsizlik nazirlikləri silah və hərbi sursat saxlayan bütün təşkilatlarda onların inventarlaşdırılmasını aparsınlar və nəticələrindən asılı olaraq qanunvericilikdə nəzərdə tutulmuş tədbirlər görsünlər və görülmüş iş üzrə iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər.

6. Daxili işlər və milli təhlükəsizlik nazirliklərinə tapşırılsın ki, ağır cinayətlərin qarşısının alınması və üstünün açılması üçün əməliyyat-axtarış fəaliyyəti üzrə xidmət sahələrinin işini əsaslı şəkildə yaxşılaşdırmaq məqsədi ilə kompleks tədbirlərin hazırlanmasını və həyata keçirilməsini təmin etsinlər və iki ay müddətində görülmüş tədbirlər barəsində Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər.

7. Daxili İşlər Nazirliyinin tərkibində Mütəşəkkil Cinayətkarlığa, Terrorizmə və Banditizmə Qarşı Mübarizə İdarəsi yaradılsın; Daxili İşlər Naziri həmin idarənin təşkili və normal fəaliyyəti üçün zəruri tədbirləri daxili ehtiyatlar hesabına həyata keçiməklə on gün müddətində həmin idarənin fəaliyyətə başlamasını təmin etsin.

8. Ədliyyə Nazirliyinə tapşırılsın ki, korrupsiyaya, yalançı sahibkarlığa, qəsdən iflasa, qanunsuz kredit verməyə, kreditlərdən təyinatı üzrə istifadə etməməyə, valyuta vəsaitlərini xaricdən vaxtında və tam gətirməməyə, mühasibat uçotu qaydalarını qəsdən pozmağa, əmlakı zorakılıqla almağa (reketə) və başqa ictimai təhlükəli əməllərə görə cinayət məsuliyyətinin müəyyən olunması; verci ödənilməsindən boyun qaçırmağa, qanunsuz odlu silah



downloaded from KitabYurdu.org

saxlamağa, gəzdirməyə və s. görə cinayət məsuliyyətinin gücləndirilməsi, cinayət və cinayət-prosessual qanunvericiliyin təkmilləşdirilməsi barədə bir ay müddətində qanunvericilik təklifləri hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

9. Respublika Prokurorluğuna və Daxili İşlər Nazirliyinə tapşırılsın ki, hazırlanan cinayət haqqında ciddi dəlillər olduqda təhqiqat orqanlarının əməkdaşlarına mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq idarə, müəssisə və təşkilatlara məxsus bina və tikintiləri müayinə etmək hüquqları verilməsi üçün qanunvericilik aktlarında zəruri dəyişiklik edilməsi haqqında təklifləri bir ay ərzində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər.

10.Azərbaycan Respublikası Prokurorluğuna, daxili işlər və milli təhlükəsizlik nazirliklərinə tapşırılsın ki, banditizmin və mütəşəkkil cinayətkarlığın geniş yayıldığı şəhər və rayonların siyahısını müəyyən etsinlər; onların ərzisində fəaliyyət göstərən daxili işlər və milli təhlükəsizlik orqanlarının cinayətkarlığa qarşı mübarizədə xüsusi tədbirlər həyata keçirilməsi ilə bağlı əməliyyat xidməti fəaliyyətinin gücləndirilmiş iş reciminə keçirilməsini təmin etsinlər.

11.Nazirlər Kabinetinə tapşırılsın ki, cinayətkarlığa qarşı mübarizə aparan hüquq mühafizə orqanlarının vacib ehtiyaclarını nəzərə əlmaqla onların maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir kriminalistika texnikası vasitələri ilə təchiz edilməsi haqqında təkliflərini bir ay ərzində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

12.Azərbaycan Respublikasının Prokurorluğuna, daxili işlər və milli təhlükəsizlik nazirliklərinə tapşırılsın ki, cinayət işlərinin çevik və keyfiyyətli istintaqını təmin etmək məqsədi ilə həmin orqanların işçilərini, iş göstəricilərindən



downloaded from KitabYurdu.org

asılı olaraq, mənəvi və maddi cəhətdən həvəsləndirmək üçün lazımi tədbirlər görsünlər.

Cinayətkarlığa qarşı mübarizə işində fərqlənən vətəndaşların, daxili işlər, milli təhlükəsizlik, polis və prokurorluq orqanları əməkdaşlarının həvəsləndirilməsi üçün əlavə vəsaitlər cəmləşdirmək məqsədi ilə Azərbaycan Respublikasının Prezidentinin xüsusi fondu yaradılsın.

Ədliyyə, daxili işlər və milli təhlükəsizlik nazirliklərinə tapşırılsın ki, həmin fondun əsasnaməsinin layihəsini on gün ərzində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV**
Bakı şəhəri, 9 avqust 1994-cü il



downloaded from KitabYurdu.org

## Nəriman Şamo oğlu İmranovun Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Nəriman Şamo oğlu **İmranovun** Milli Təhlükəsizlik Nazirliyinin işinin təşkilində ciddi nöqsanlara, öz vəzifə borcunun yerinə yetirilməsində səhlənkarlığa yol verdiyini nəzərə alaraq, "Respublikanın iqtisadi və ictimai-siyasi həyatını sabitləşdirmək sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikasının Qanununu rəhbər tutaraq **qərara alıram:**

Nəriman Şamo oğlu İmranov Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri vəzifəsindən azad edilsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV**
Bakı şəhəri, 22 sentyabr 1994-cü il



downloaded from KitabYurdu.org

## Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri vəzifəsinin müvəqqəti olaraq icra edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri vəzifəsinin icrası müvəqqəti olaraq Azərbaycan Respublikasının milli təhlükəsizlik nazirinin birinci müavini Namiq Rəşid oğlu **Abbasova** tapşırılsın.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 22 sentyabr 1994-cü il



downloaded from KitabYurdu.org

## B.N.Zeynalov haqqında

## Azərbayjan Respublikası Prezidentinin SƏRƏNCAMI

Baxış Novruzəli oğlu **Zeynalov** Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin kadrlar üzrə müavini təyin edilsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 24 sentyabr 1994-cü il



downloaded from KitabYurdu.org

**Azərbaycan Respublikasının hərbi qulluqçularının təltif edilməsi haqqında**

**Azərbaycan Respublikası Prezidentinin FƏRMANI**

1. Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, Vətənimizin torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşaraq göstərdikləri şəxsi igidlik və şücaətə, öz müqəddəs əsgəri və xidməti borclarının şərəflə yerinə yetirilməsindəki misilsiz xidmətlərə görə aşağıdakı hərbi qulluqçulara **"Azərbaycanın Milli Qəhrəmanı"** adı verilsin:

*Çıxarış:*

**Milli Təhlükəsizlik Nazirliyi üzrə**

2. Baş leytenant - Əliyev Nadir Alış oğlu
**(ölümündən sonra) (Ağdam rayon şöbəsi)**

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının prezidenti**
Bakı şəhəri, 9 oktyabr 1994-cü il



downloaded from KitabYurdu.org

## Q.Ə.Xalıkov haqqında

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Qalib Əbdül oğlu **Xalıkov** Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini – Əks-kəşfiyyat idarəsinin rəisi vəzifəsinə təyin edilsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər Əliyev**
Bakı şəhəri, 13 oktyabr 1994-cü il.



downloaded from KitabYurdu.org

**Azərbaycan Respublikası**
**Milli Təhlükəsizlik Nazirliyinın hərbi qulluqçuları**
**E.H.Məmmədovun və T.Ə.Bədəlovun**
**təltif edilməsi haqqında**

**Azərbaycan Respublikası Prezidentinin**
**FƏRMANI**

I. Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, Vətənimizin torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşaraq göstərdiyi şəxsi igidlik və şücaətə, öz müqəddəs əsgəri və xidməti borcunun şərəflə yerinə yetirilməsindəki misilsiz xidmətinə görə MTN Sərhəd Qoşunlarının baş leytenantı Eldar Harun oğlu Məmmədova *ölümündən sonra* **"Azərbaycanın Milli Qəhrəmanı"** adı verilsin.

II. Azərbaycan Respublikasının torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində göstərdiyi xüsusi xidmətə, şəxsi igidlik və şücaətə görə MTN Sərhəd Qoşunlarının leytenantı Tahir Ərrəhman oğlu Bədəlov *ölümündən sonra* **«Azərbaycan Bayrağı»** ordeni ilə təltif edilsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 11 dekabr 1994-cü il



downloaded from KitabYurdu.org

## N.R.Abbasovun Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 121-4-cü maddəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alıram:**

Namiq Rəşid oğlu **Abbasov** Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri təyin edilsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 22 mart 1995-ci il



downloaded from KitabYurdu.org

**Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupunun təltif edilməsi haqqında**

**Azərbaycan Respublikası Prezidentinin FƏRMANI**

I. Azərbaycan Respublikasının Konstitusiya dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiklərinə görə aşağıdakılara **"Azərbaycanın Milli Qəhrəmanı"** adı verilsin.

**Müdafiə Nazirliyi üzrə:**

2. Kursant - Mənsurov Bəhruz Qəhrəman oğlu
***(ölümündən sonra)***

**Milli Təhlükəsizlik Nazirliyi üzrə**

3. Baş leytenant - Əliyev Əmiraslan Rza oğlu
***(ölümündən sonra)***

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 4 aprel 1995-ci il

**N.R.Abbasova general-leytenant**



downloaded from KitabYurdu.org

**hərbi rütbəsi verilməsi haqqında**

## Azərbaycan Respublikası Prezidentinin
## FƏRMANI

Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Namiq Rəşid oğlu **Abbasova** general-leytenant hərbi rütbəsi verilsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 27 dekabr 1995-ci il



downloaded from KitabYurdu.org

**Azərbaycan Respublikası**
**Milli Təhlükəsizlik Nazirliyinin**
**bir qrup hərbi qulluqçusunun təltif edilməsi**
**haqqında**

**Azərbaycan Respublikası Prezidentinin**
**FƏRMANI**

I. Azərbaycan Respublikasının konstitusiya dövlət quruluşunun müdafiəsində, dövlət çevrilişi cəhdlərinin qarşısının alınmasında, qeyri-qanuni silahlı dəstələrin zərərsizləşdirilməsində, əmin-amanlığın təmin edilməsində öz xidməti borcunu şərəflə yerinə yetirərkən şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə baş çavuş Cəfərov Faiq Əliqulu oğluna **"Azərbaycanın Milli Qəhrəmanı"** adı verilsin.

II. Azərbaycan Respublikasının müstəqilliyinin və dövlətçiliyinin müdafiəsində, təhlükəsizliyinin təmin edilməsində, başqa dövlətlərin xüsusi xidmət orqanlarının kəşfiyyat-təxribat fəaliyyətinin qarşısının alınmasında, xüsusi xidmətlərinə görə aşağıdakı hərbi qulluqçular **"Azərbaycan Bayrağı" ordeni** ilə təltif edilsinlər:

1. Polkovnik Abbasov Malik Yavər oğlu
2. Polkovnik-leytenant Budaqov Telman Şamiloviç
3. Polkovnik-leytenant Qasımov Seyfulla Şamil oğlu
4. Polkovnik-leytenant İsmayılov Allahverən İbiş oğlu
5. Mayor Əliyev İsrail Məhərrəm oğlu
6. Leytenant Əhmədov Maarif Talış oğlu



downloaded from KitabYurdu.org

3. Azərbaycan Respublikasının dövlətçiliyinin qorunmasında, dövlət çevrilişi cəhdinin qarşısının alınmasında, ictimai asayişin qorunmasında, əhalinin təhlükəsizliyinin təmin edilməsində öz xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə aşağıdakı hərbi qulluqçular **"İgidliyə görə" medalı** ilə təltif edilsinlər.

1. Baş çavuş Abbasov Rauf Aydın oğlu
2. Gizir Bağırov Tağı Bağır oğlu
3. Gizir Cəfərov İlham Cabbar oğlu

4. Dövlət çevrilişi cəhdlərinin, təxribatların, terrorçuluğun və digər təhlükəli cinayətlərin qarşısının alınmasında, onların açılmasında, əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində öz xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə aşağıdakı hərbi qulluqçular **"Hərbi xidmətlərə görə" medalı** ilə təltif edilsinlər:

1. Polkovnik Xalıqov Qalib Əbdül oğlu
2. Polkovnik Babayev Tofiq Behbud oğlu
3. Polkovnik Əliyev Hüseynağa Məhərrəm oğlu
4. Polkovnik-leytenant Abbasov Rafiq Zöhrab oğlu
5. Polkovnik-leytenant Alxasov Nazim Balaşərif oğlu
6. Polkovnik Qasımov Sevlan Vəli oğlu
7. Polkovnik-leytenant Səmədov Zahid Mehdi oğlu
8. Mayor Abdullayev Elxan Şakir oğlu
9. Mayor Babayev Ağababa Ənvər oğlu
10. Mayor Əhmədbəyov Rauf Fuad oğlu
11. Mayor Muradov Aydın Hacı oğlu
12. Mayor Heydərov Elçin Zahid oğlu
13. Kapitan Əliyev Namiq Azərpaşa oğlu
14. Kapitan Rəsulov Adil Yusif oğlu
15. Kapitan Şabanov Gündüz Şaban oğlu


downloaded from KitabYurdu.org

16. Baş leytenant Ağayev İlham Hacıağa oğlu
17. Baş leytenant Quliyev Elçin İbrahim oğlu
18. Baş leytenant Səfərov Fuad Vaqif oğlu
19. Baş leytenant Həsənov Aydın İsmayıl oğlu

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 27 dekabr 1995-ci il



downloaded from KitabYurdu.org

**Azərbaycan Respublikası**
**Milli Təhlükəsizlik Nazirliyinin**
**bir qrup hərbi qulluqçusunun təltif edilməsi haqqında**

**Azərbaycan Respublikası Prezidentinin**
**FƏRMANI**

I. Azərbaycan Respublikasının Konstitusiya dövlət quruluşunun müdafiəsində, sabitliyin təmin olunmasında, dövlət çevrilişi cəhdlərinin, xarici dövlətlərin xüsusi xidmət orqanlarının pozuculuq fəaliyyətinin qarşısının alınmasında, sərhədlərin mühafizəsində öz xidməti borclarını şərəflə yerinə yetirdiklərinə görə Sərhəd Qoşunlarının aşağıdakı hərbi qulluqçuları **"Azərbaycan Bayrağı" ordeni** ilə təltif edilsinlər:

1.General-mayor Novruzov Abbasəli Ramazan oğlu
2.Mayor Rzayev Rövşən İbrahim oğlu

2. Azərbaycan Respublikasının dövlətçiliyinin və ərazi bütövlüyünün qorunmasında, əmin-amanlığın təmin olunmasında, dövlət çevrilişinə cəhd edən cinayətkarların zərərsizləşdirilməsində şəxsi igidlik və şücaət göstərdiklərinə görə Sərhəd Qoşunlarının aşağıdakı hərbi qulluqçuları **"İgidliyə görə" medalı** ilə təltif edilsinlər:

1.Kapitan Əsgərov Akif Allahbağış oğlu
2.Baş leytenant Vəliyev Vaqif Əli oğlu
3.Baş leytenant Quliyev Vüqar Soltan oğlu
4.Baş leytenant Menyayev Albert Şamiloviç
5.Baş leytenant Novruzov Polad Novruz oğlu
6.Gizir Bağırov Nadir Bayram oğlu



downloaded from KitabYurdu.org

7.Gizir Məmmədov Azər Fərhad oğlu
8.Gizir Mustafayev Kamran Əhməd oğlu
9.Kiçik gizir Cəfərov Azər Məmməd oğlu

III. Azərbaycan Respublikasının müstəqilliyinin qorunmasında, dövlət təhlükəsizliyinin təmin olunmasında qarşılarında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə aşağıdakı hərbi qulluqçular **"Hərbi xidmətlərə görə" medalı** ilə təltif edilsinlər:

1.Kiçik leytenant Boyarintsev Aleksandr Vasilyeviç
2.Baş gizir Ağayev Zakir Pirxan oğlu
3.Gizir İsmayılov Ramiz Mustafa oğlu

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 3 mart 1996-cı il



downloaded from KitabYurdu.org

## General-leytenant Arif Heydərovun 70 illik yubileyi haqqında

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

General-leytenant Arif Nəzər oğlu **Heydərovun** 70 illik yubileyi ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə və Milli Təhlükəsizlik Nazirliyinə tapşırılsın ki, Arif Heydərovun 70 illiyi ilə əlaqədar lazımi tədbirlər hazırlayıb həyata keçirsinlər.

**Azərbaycan Respublikası Prezidentinin**
**Heydər ƏLİYEV**
Bakı şəhəri, 24 may 1996-cı il



downloaded from KitabYurdu.org

## İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

Son zamanlar iqtisadi fəaliyyətlə məşğul olan idarə, müəssisə, təşkilat və vətəndaşlardan əsassız keçirilən yoxlamalar haqqında çoxsaylı şikayət və müraciətlər daxil olur. Dövlət nəzarətini həyata keçirən orqanların bəzi vəzifəli şəxsləri tərəfindən belə yoxlamaların aparılması bir çox hallarda qeyri-qanuni varlanma məqsədi daşıyır və ümumilikdə respublikanın iqtisadi böhrandan çıxmasında subyektiv maneələr yaradır.

Keçmiş SSRİ dövründən miras qalan dövlət nəzarəti mexanizmi müasir tələblərə cavab vermir və yoxlamalar zamanı vəzifəli şəxslərin öz hüquqlarından sui-istifadə etməsi üçün şərait yaradır, bu isə vətəndaşların haqlı narazılığına səbəb olur.

Respublikada yeni iqtisadi münasibətlərin yaranması və inkişafı mülkiyyət formasından və təşkilati-hüquqi tabeliyindən asılı olmayaraq istehsal, xidmət və maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin həyata keçirilməsi qaydalarının dəyişdirilməsini və yeni qanunvericiliklə tənzimlənməsini tələb edir.

İqtisadi münasibətlərin hazırkı səviyyəsinə uyğun müvafiq dövlət nəzarəti mexanizmi tətbiq etmək, həmin nəzarətin daha məqbul vasitələrini seçmək, bazar münasibətlərinin inkişafına mənfi təsir göstərəcək halların



downloaded from KitabYurdu.org

qarşısını almaq, vətəndaşların və hüquqi şəxslərin qanuni mənafelərini qorumaq məqsədi ilə **qərara alıram:**

1. İstehsal, xidmət və maliyyə-kredit fəaliyyəti sahəsində əsassız yoxlamalar qadağan edilsin.

2. Cinayət işinin istintaqı ilə bağlı hallar istisna olmaqla istehsal, xidmət və maliyyə-kredit sahələrində aparılan yoxlamaların aşağıdakı qaydada tənzimlənməsi məqsədəuyğun hesab edilsin:

idarə, müəssisə və təşkilatların iqtisadi fəaliyyətində cinayət xarakterli faktların olması haqqında prokurorluq və polis orqanlarına anonim olmayan ərizələr, şikayətlər və məlumatlar daxil olduqda müəssisələrdə, idarələrdə və təşkilatlarda yoxlama aparılması barədə Azərbaycan Respublikası Baş prokurorunun və ya onun müvafiq sahəyə baxan müavininin öz təşəbbüsləri ilə, yaxud aşağı prokurorların təqdimatına əsasən qəbul etdikləri əsaslandırılmış qərarlarının və ya respublika daxili işlər nazirinin və ya onun müvafiq sahəyə baxan müavininin qəbul etdiyi belə qərarların icra üçün Azərbaycan Respublikası Milli Bankına, Azərbaycan Respublikası Maliyyə Nazirliyinə və ya Azərbaycan Respublikası Baş Dövlət Vergi Müfəttişliyinə göndərilməsi;

prokurorluq, polis və milli təhlükəsizlik orqanları tərəfindən müəssisələrin, idarələrin, təşkilatların və vətəndaşların istehsal, xidmət, maliyyə-kredit fəaliyyətinin yoxlanılmasının yalnız Azərbaycan Respublikası Milli Bankının, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, Azərbaycan Respublikası Baş Dövlət Vergi Müfəttişliyinin yoxlamaları nəticəsində cinayət xarakterli faktların aşkar edildiyi hallarda həyata keçirilməsi;



downloaded from KitabYurdu.org

iqtisadi cinayət xarakterli faktların aşkar edilməsi, Azərbaycan Respublikası Prezidentinin fərmanlarında, sərəncamlarında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarında nəzərdə tutulmuş konkret məsələlərin həlli idarələrdə, müəssisələrdə və təşkilatlarda mütəxəssislər tərəfindən təxirəsalınmaz yoxlamalar, təftişlər və inventarlaşmalar aparılması zərurəti yaratdıqda Baş prokurorun, onun müvafiq sahəyə baxan müavininin və ya daxili işlər nazirinin və onun müvafiq sahəyə baxan müavininin, milli təhlükəsizlik nazirinin əsaslandırılmış qərarı ilə Azərbaycan Respublikası Milli Bankının, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, Azərbaycan Respublikası Baş Dövlət Vergi Müfəttişliyinin və auditor təşkilatının mütəxəssislərinin iştirakı ilə yoxlamanın aparılması.

3. Müəyyən edilsin ki, Azərbaycan Respublikası qanunvericiliyi ilə bank, idarə nəzarəti və yerli icra hakimiyyəti orqanlarının səlahiyyətinə aid edilmiş hallardan başqa, onların təşəbbüsü ilə yoxlama, təftiş və inventarlaşmalar aparılmır. Azərbaycan Respublikasının Nazirlər Kabineti idarə nəzarətinin həyata keçirilməsi qaydaları haqqında əsasnaməni hazırlayıb bir ay müddətində təsdiq etsin.

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Baş Dövlət Vergi Müfəttişliyi, Milli Bankı onların üzərinə qoyulan vəzifələrin icrası zamanı qanun pozuntularına yol verilməməsi məqsədi ilə:

müvafiq yoxlama və nəzarət xidmətlərinin yenidən qurulmasını, yüksək tələblərə cavab verən mütəxəssislərlə komplektləşdirilməsini təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə üç ay müddətində məlumat versinlər;


downloaded from KitabYurdu.org

aparılan yoxlamaların sayı və nəticələri haqqında hər üç aydan bir Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına məlumat versinlər;

bu Fərmanda müəyyən edilən vəzifələrin icrası zamanı qarşılıqlı fəaliyyət göstərsinlər.

5. Azərbaycan Respublikası Prezidentinin yanında hüquqi islahat komissiyasının işçi qrupuna tapşırılsın ki, üç ay müddətində yoxlamaların ümumilikdə qəbul edilmiş müasir prinsiplər əsasında qurulmasını təmin edən qanun layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

6. Bu fərmanda adları çəkilən dövlət orqanlarının öz hüquqlarından sui-istifadə hallarının qarşısını almaq, yoxlamalar zamanı vətəndaşların və hüquqi şəxslərin qanuni hüquq və mənafelərini qorumaq məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbərinə tapşırılsın ki, bir ay müddətində təkliflər hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

7. Bu fərman imzalandığı gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 iyun 1996-cı il



downloaded from KitabYurdu.org

## General-leytenant A.N.Heydərovun xatirəsinin əbədiləşdirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

General-leytenant Arif Nəzər oğlu Heydərovun xatirəsini əbədiləşdirmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin tədris mərkəzinə A.N.Heydərovun adı verilsin və tədris mərkəzində onun büstü qoyulsun.
2. Milli Təhlükəsizlik Nazirliyinin sərhəd qoşunlarının 4-cü sərhəd dəstəsinin 16-cı sərhəd zastavasına A.N.Heydərovun adı verilsin.
3. Bakı şəhər İcra hakimiyyəti A.N.Heydərovun yaşadığı binaya (İstiqlaliyyət küçəsi, 9) xatirə lövhəsinin vurulmasını təmin etsin.

**Azərbaycan Respublikası Prezidentinin**
**Heydər ƏLİYEV**
Bakı şəhəri, 27 iyun 1996-cı il



downloaded from KitabYurdu.org

## Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Qazaxıstan Respublikasının Milli Təhlükəsizlik Komitəsi arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında Sazişin imzalanması səlahiyyətinin verilməsi barədə

**Azərbaycan Respublikası Prezidentinin**
**SƏRƏNCAMI**

1. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Qazaxıstan Respublikasının Milli Təhlükəsizlik Komitəsi arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında Sazişin Azərbaycan Respublikası Hökuməti adından imzalanması səlahiyyəti Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Namiq Abbasova verilsin.
2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın birinci bəndində göstərilən Sazişin Azərbaycan Respublikası Hökuməti adından imzalanması səlahiyyətinin Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Namiq Abbasova verilməsi barədə Qazaxıstan tərəfinə müvafiq bildiriş göndərsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 14 sentyabr 1996-cı il



downloaded from KitabYurdu.org

## «Dövlət sirri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

«Dövlət sirri haqqında» Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1.«Dövlət sirri haqqında» Azərbaycan Respublikası Qanununun müddəaları nəzərə alınaraq Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya yaradılsın. Müəyyən edilsin ki:

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya dövlət sirri haqqında Azərbaycan Respublikası qanunvericiliyinin həyata keçirilməsini təmin edən dövlət proqramlarının, normativ-hüquqi aktların və metodik sənədlərin işlənib hazırlanması və yerinə yetirilməsi naminə dövlət sirrinin mühafizəsi sahəsində dövlət hakimiyyəti orqanlarının fəaliyyətini əlaqələndirən kollegial orqandır;

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya öz funksiyalarını və üstün idarəçilik səlahiyyətlərini bu Komissiya haqqında Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi Əsasnaməyə müvafiq olaraq həyata keçirir.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının «Dövlət sirri haqqında» Azərbaycan Respublikası qanununa uyğunlaş-



downloaded from KitabYurdu.org

dırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamənin layihəsini hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; həmin Komissiyanın tərkibi haqqında təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Bu Fərmanın 3-cü bəndində Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinə aid edilmiş məsələlərə dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Bu Fərmanın 3-cü bəndində Azərbaycan Respublikası Nazirlər Kabinetinin səlahiyyətlərinə aid edilmiş məsələlərə dair müvafiq normativ-hüquqi aktların işlənib hazırlanmasını və təsdiq edilməsini təmin etsin;

Nazirlər Kabinetinin və müvafiq icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının «Dövlət sirri haqqında» Azərbaycan Respublikası qanununa uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin qanunun 26-cı maddəsinin müddəalarını nəzərə alaraq məlumatın mühafizəsi vasitələrinin sertifikasiyası qaydaları barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin qanunun 26-cı maddəsinin müddəalarını nəzərə alaraq məlumatın mühafizəsi vasitələrinin sertifikasiyasını təşkil edən müvafiq icra hakimiyyəti orqanı barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;


downloaded from KitabYurdu.org

öz səlahiyyətləri daxilində «Dövlət sirri haqqında» Azərbaycan Respublikası qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. Müəyyən edilsin ki:

qanunun 7-ci maddəsinin ikinci hissəsində, 8-ci maddəsinin üçüncü hissəsində və dördüncü hissəsinin 3-cü cümləsində, 20-ci maddəsinin on birinci hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

qanunun 8-ci maddəsinin dördüncü hissəsinin 1-ci cümləsində, 11-ci maddəsinin dördüncü hissəsində, 12-ci maddəsinin ikinci hissəsində, 13-cü maddəsinin dördüncü hissəsində, 14-cü maddəsinin ikinci hissəsində, 17-ci maddəsinin birinci hissəsində (ekspert rəyi verilməsinə dair hissəsində), 18-ci maddəsinin birinci hissəsinin 4-cü abzasında, 19-cu maddəsinin birinci hissəsinin 2-ci abzasında, 26-cı maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya həyata keçirir;

qanunun 10-cu maddəsinin dördüncü hissəsində, 17-ci maddəsinin birinci hissəsində (dövlət sirri təşkil edən məlumatların digər dövlətlərə verilməsi haqqında qərar qəbul edilməsi hissəsində), 19-cu maddəsinin üçüncü hissəsində, 20-ci maddəsinin üçüncü və onuncu hissələrində, 21-ci maddəsinin birinci hissəsinin üçüncü abzasında, 24-cü maddəsinin birinci hissəsində, 25-ci maddəsinin birinci hissəsində və üçüncü hissəsinin 2-ci abzasında müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;



downloaded from KitabYurdu.org

qanunun 19-cu maddəsinin birinci hissəsinin üçüncü abzasında nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini qanunvericiliyə uyğun olaraq öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Azərbaycan Respublikasının Rabitə Nazirliyi həyata keçirilər.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 yanvar 1997-cu il



downloaded from KitabYurdu.org

## Azərbaycan Respublikasının milli təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı gününün təsis edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

1919-cu ildə Azərbaycan Demokratik Respublikası Hərbi Nazirliyinin Baş Qərargahı tərkibində ilk xüsusi xidmət orqanı olan Kəşfiyyat və əks-kəşfiyyat bölməsinin yaradıldığı gün - ***28 mart*** Azərbaycan Respublikasının milli təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı günü elan edilsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 23 mart 1997-ci il


downloaded from KitabYurdu.org

## «Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

«Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında» Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının «Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında» Azərbaycan Respublikasının qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

«Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında» Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktlarının layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;



downloaded from KitabYurdu.org

«Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında» Azərbaycan Respublikasının qanunundan irəli gələn digər məsələləri öz səlahiyyətləri daxilində həll etsin.

2. Müəyyən edilsin ki:

«Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında» Azərbaycan Respublikasının qanununun 3-cü maddəsində, 7-ci maddəsinin birinci hissəsində və 9-cu maddəsində nəzərdə tutulmuş «dövlət sığorta orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Sığorta Kommersiya Şirkəti həyata keçirir;

həmin qanunun 4-cü maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

həmin qanunun 6-cı maddəsinin birinci və üçüncü hissələrində, 7-ci maddəsinin ikinci hissəsində və 9-cu maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Ədliyyə Nazirliyi və Ali Dövlət Hakimiyyəti və İdarəetmə Orqanlarını Baş Mühafizə İdarəsi həyata keçirirlər;

həmin qanunun 9-cu maddəsinin birinci hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Ədliyyə Nazirliyi və Ali Dövlət Hakimiyyəti və İdarəetmə Orqanlarını Baş Mühafizə İdarəsi həyata keçirirlər;



downloaded from KitabYurdu.org

həmin qanunun 7-ci maddəsinin 1-ci hissəsinin «a» bəndində nəzərdə tutulmuş «Müvafiq icra hakimiyyəti» orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı orqanları həyata keçirirlər.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 25 iyul 1997-ci il


downloaded from KitabYurdu.org

## «Rabitə haqqında»
## Azərbaycan Respublikası Qanununun
## tətbiq edilməsi barədə

## Azərbaycan Respublikasının Prezidentinin
## FƏRMANI

«Rabitə haqqında» Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram**:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının «Rabitə haqqında» Azərbaycan Respublikasının qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılması təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

«Rabitə haqqında» Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvercilik aktlarının layihələrini hazırlayıb, Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

«Rabitə haqqında» Azərbaycan Respublikasının qanunundan irəli gələn digər məsələləri öz səlahiyyətləri daxilində həll etsin.

2. Müəyyən edilsin ki:

«Rabitə haqqında» Azərbaycan Respublikasının qanununun 20-ci maddəsində nəzərdə tutulmuş «müvafiq icra



downloaded from KitabYurdu.org

hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

həmin qanunun 33-cü maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

həmin qanunun 4-cü maddəsinin birinci hissəsinin 8-ci abzasında, 7-ci maddəsinin üçüncü hissəsində, 11-ci maddəsinin ikinci hissəsində, 14-cü maddəsində, 16-cı maddəsinin birinci hissəsində və 36-cı maddəsinin birinci və ikinci hissələrində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Rabitə Nazirliyi həyata keçirir;

həmin qanunun 6-cı maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti və Rabitə Nazirliyi həyata keçirir;

həmin qanunun 15-ci maddəsinin birinci, ikinci və beşinci hissələrində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Radiotezliklər üzrə Azərbaycan Respublikasının Dövlət Komissiyası həyata keçirir;

həmin qanunun 10-cu maddəsinin birinci hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi, Rabitə Nazirliyi vəMüdafiə Nazirliyi həyata keçirir;

həmin qanunun 10-cu maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Müdafiə Nazir-



downloaded from KitabYurdu.org

liyi, Milli Təhlükəsizlik Nazirliyi və Daxili İşlər Nazirliyi həyata keçirir;

həmin qanunun 26-cı maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini Azərbaycan Respublikasının nazirlikləri, dövlət komitələri, baş idarələri, şirkətləri və konsernləri həyata keçirilər;

həmin qanunun 24-cü maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının Prezidentinnə aşağıdakıların icrası barədə məlumat verməklə:

«Rabitə haqqında» Azərbaycan Respublikası Qanununun 19-cu maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş rabitə vasitələrinin sertifikatlaşdırılması qaydalarını iki ay müddətində təsdiq etsin;

həmin qanunun 27-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş rabitə vasitələrinin və qurğularının mühafizəsi qaydalarını iki ay müddətində təsdiq etsin;

həmin qanunun 28-ci maddəsinin altıncı hissəsində nəzərdə tutulmuş poçt xidməti məqsədi ilə nəqliyyat vasitələrindən istifadə qaydalarını iki ay müddətində təsdiq etsin.

4. Azərbaycan Respublikasının Rabitə Nazirliyinə tapşırılsın ki, bir ay müddətində:

«Rabitə haqqında» Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş fərdi rabitə şəbəkələrinin ümumi rabitə şəbəkəsinə qoşulması qaydalarını təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;



downloaded from KitabYurdu.org

«Rabitə haqqında» Azərbaycan Respublikası Qanununun müddəalarından irəli gələn digər məsələləri öz səlahiyyətləri daxilində həll etsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 25 iyul 1997-ci il



downloaded from KitabYurdu.org

## «Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti Milli Təhlükəsizlik Xidmətləri arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında Saziş»i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

1. «Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti Milli Təhlükəsizlik Xidmətləri arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında Saziş»i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Namiq Rəşid oğlu **Abbasova** verilsin.
2. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın birinci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Namiq Rəşid oğlu Abbasova verilməsi barədə Moldova tərəfinə müvafiq bildiriş göndərsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 18 avqust 1997-ci il



downloaded from KitabYurdu.org

**Abbasov Namiq Rəşid oğlunun**
**Azərbaycan Respublikasının**
**milli təhlükəsizlik naziri təyin edilməsi**
**haqqında**

**Azərbaycan Respublikası Prezidentinin**
**FƏRMANI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**Abbasov** Namiq Rəşid oğlu Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri təyin edilsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 27 oktyabr 1998-ci il



downloaded from KitabYurdu.org

## Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Akademiyasının yaradılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikasının milli təhlükəsizlik orqanlarını xüsusi ixtisaslı ali təhsilli zabit kadrlar ilə təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinin Akademiyası yaradılsın.
2. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinə tapşırılsın ki, bir ay müddətində akademiyanın nizamnaməsini və strukturunu hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu sərəncamdan irəli gələn məsələləri həll etsin.
4. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 dekabr 1998-ci il


downloaded from KitabYurdu.org

## Q.Ə.Xalıqovun Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini – Əks-kəşfiyyat idarəsinin rəisi vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Qalib Əbdül oğlu **Xalıqov** Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini – Əks-kəşfiyyat idarəsinin rəisi vəzifəsindən azad edilsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 16 dekabr 1998-ci il



downloaded from KitabYurdu.org

## Azərbaycan Respublikası
## Milli Təhlükəsizlik Nazirliyinin
## bir qrup hərbi qulluqçusunun təltif edilməsi
## haqqında

## Azərbaycan Respublikası Prezidentinin
## FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq **qərara alıram:**

I. Azərbaycan Respublikasının müstəqilliyinin qorunmasında, xarici ölkələrin xüsusi xidmət orqanlarının kəşfiyyat-pozuculuq fəaliyyətinin, casusluğun qarşısının alınmasında xüsusi xidmətlərinə görə aşağıdakı hərbi qulluqçular **"Azərbaycan Bayrağı" ordeni** ilə təltif edilsinlər:

1. General-leytenant Abbasov Namiq Rəşid oğlu
2. Mayor Əliyev Namiq Azərpaşa oğlu
3. Polkovnik Əsədullayev Ədalət Hüseyn oğlu
4. Polkovnik-leytenant İskəndərov Fuad Eldar oğlu
5. Mayor Mirvətova Natəvan Mürsəl qızı
6. Mayor Rəsulov Adil Yusif oğlu.

II. Azərbaycan Respublikasının dövlət təhlükəsizliyinin təmin edilməsində, xarici ölkələrin xüsusi xidmət orqanlarının kəşfiyyat və terrorçuluq fəaliyyətinin qarşısının alınmasında öz xidməti borclarını yerinə yetirərkən fərqləndiklərinə görə aşağıdakı hərbi qulluqçular **"İgidliyə görə" medalı** ilə təltif edilsinlər:

1. Polkovnik-leytenant Qasımov Sevlan Vəli oğlu ***(ölümündən sonra)***
2. Gizir Niftəliyev Şücayət Abbas oğlu



downloaded from KitabYurdu.org

3. Gizir Orucov Elmidar Lətif oğlu
4. Əsgər Talışxanov Elxan Rauf oğlu
*(ölümündən sonra)*

III. Azərbaycan Respublikasının dövlətçiliyinin qorunmasında, kəşfiyyat-təxribat fəaliyyətinin, casusluğun qarşısının alınmasında, əməliyyat-axtarış və istintaq tədbirlərinin həyata keçirilməsində öz xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə aşağıdakı hərbi qulluqçular **"Hərbi xidmətə görə" medalı** ilə təltif edilsinlər:

1. Polkovnik Abbasov Malik Yavər oğlu
*(ölümündən sonra)*
2. Polkovnik-leytenant Ağayev Həsənağa Hacıbaba oğlu
3. Polkovnik-leytenant Cəbrayılov Asif Mikayıl oğlu
4. Mayor Əhmədov Araz Süleyman oğlu
5. Polkovnik Əliyev Dilavər Nemət oğlu
6. Kapitan Fərzəliyev Sultan Cavanşir oğlu
7. Mayor Heydərov Səyavuş Cəmil oğlu
8. Ədliyyə kapitanı Hüseynov Telman Qulaməli oğlu
9. Polkovnik-leytenant İsgəndərov Xəqani Qara oğlu
10. Tibb xidməti polkovnik-leytenantı
Kərimov Füzuli Nəriman oğlu
11. Kapitan Kərimov İqor Leonidoviç
12. Baş leytenant Qasımov Cəlal Əbil oğlu
13. Polkovnik-leytenant Qasımov Seyfulla Şamil oğlu
14. Kapitan Quliyev Elçin İbrahim oğlu
15. Mayor Mahmudov İlqar Səyavuş oğlu
16. Polkovnik Mansurov Rüfət Talıb oğlu
17. Polkovnik-leytenant
Məmmədov Firdovsi Firudin oğlu
18. Kapitan Məmmədov Mahmud Fətulla oğlu



downloaded from KitabYurdu.org

19. Polkovnik-leytenant Nağıyev Əli Nağı oğlu
20. Polkovnik Sadıqov Firudin Loğman oğlu
21. Polkovnik-leytenant Sayılov Şahin Ənvər oğlu
22. Polkovnik-leytenant Talıbov Fikrət Fərəc oğlu

IV. Bu fərman imzalandığı gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 24 dekabr 1998-ci il



downloaded from KitabYurdu.org

## «Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

«Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

qüvvədə olan Qanunvericilik aktlarının «Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu haqda Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

«Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri öz səlahiyyəti hüdudlarında həll etsin.

2. Müəyyən edilsin ki:

«Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş «müva-



downloaded from KitabYurdu.org

fiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini öz səlahiyyəti hüdudlarında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi həyata keçirirlər.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 fevral 1999-cu il



downloaded from KitabYurdu.org

# «Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

**Əlavələrlə**
**24 avqust 2002-ci il fərmanı**
**9 yanvar 2004-cü il fərmanı**

«Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq edilməsini təmin etmək məqsədilə **qərara alıram:**

Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının «Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət müdafiəsi haqqında» Azərbaycan Respublikasının qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin qanunun 19-cu maddəsində nəzərdə tutulmuş məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

«Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən


downloaded from KitabYurdu.org

edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

öz səlahiyyətləri daxilində «Məhkəmə və hüquq-mühafizə orqanların işçilərinin dövlət müdafiəsi haqqında» Azərbaycan Respublikasının qanunundan irəli gələn digər məsələləri həll etsin.

1. Müəyyən edilsin ki:

«Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinin birinci hissəsinin 6-cı bəndində, 12-ci maddəsinin birinci hissəsinin 1-ci bəndində, ikinci hissəsinin 2-ci bəndində və üçüncü hissəsində «müvafiq icra hakimiyyəti orqanları» dedikdə müvafiq olaraq Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Dövlət Sərhəd Xidməti, Dövlət Gömrük Komitəsi və Ədliyyə Nazirliyi (Naxçıvan Muxtar Respublikası ərazisində Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi) nəzərdə tutulur;

həmin qanunun 12-ci maddəsinin ikinci hissəsinin 1-ci bəndində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 13 fevral 1999-cu il



downloaded from KitabYurdu.org

**Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi ilə Özbəkistan Respublikası Milli Təhlükəsizlik Xidməti arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında Sazişi imzalamaq səlahiyyətinin verilməsi barədə**

**Azərbaycan Respublikası Prezidentinin**
**SƏRƏNCAMI**

1. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi ilə Özbəkistan Respublikası Milli Təhlükəsizlik Xidməti arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında Saziş imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Namiq Rəşid oğlu **Abbasova** verilsin.
2. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın birinci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Namiq Rəşid oğlu **Abbasova** verilməsi barədə Özbəkistan Respublikasının Xarici İşlər Nazirliyinə bildiriş göndərsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 25 mart 1999-cu il



downloaded from KitabYurdu.org

## Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi ilə Qırğızıstan Respublikası Milli Təhlükəsizlik Nazirliyi arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında Sazişi imzalamaq səlahiyyətinin verilməsi barədə

**Azərbaycan Respublikası Prezidentinin**
**SƏRƏNCAMI**

1. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi ilə Qırğızıstan Respublikası Milli Təhlükəsizlik Nazirliyi arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında Saziş imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Namiq Rəşid oğlu **Abbasova** verilsin.
2. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın birinci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Namiq Rəşid oğlu **Abbasova** verilməsi barədə Qırğızıstan Respublikasının Xarici İşlər Nazirliyinə bildiriş göndərsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 25 mart 1999-cu il



downloaded from KitabYurdu.org

**Azərbaycan Respublikası**
**Milli Təhlükəsizlik Nazirliyi Akademiyasının**
**Nizamnaməsinin və strukturunun**
**təsdiq olunması barədə**

**Azərbaycan Respublikası Prezidentinin**
**SƏRƏNCAMI**

Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi Akademiyasının fəaliyyətinin təşkilini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi Akademiyasının Nizamnaməsi və strukturu təsdiq edilsin.
2. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinin Akademiyasında təhsil prosesi 2000-ci il sentyabrın 1-dən başlansın.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 15 aprel 1999-cu il



downloaded from KitabYurdu.org

**1999-cu il martın 26-da Bakı şəhərində imzalanmış «Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi ilə Özbəkistan Respublikası Milli Təhlükəsizlik Xidməti arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında» Sazişin təsdiq edilməsi barədə**

**Azərbaycan Respublikası Prezidentinin**
**SƏRƏNCAMI**

1. 1999-cu il martın 26-da Bakı şəhərində imzalanmış «Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi ilə Özbəkistan Respublikası Milli Təhlükəsizlik Xidməti arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında» Saziş **təsdiq edilsin.**
2. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 14 may 1999-cu il



downloaded from KitabYurdu.org

## 1999-cu il martın 26-da Bakı şəhərində imzalanmış «Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi ilə Qırğızıstan Respublikası Milli Təhlükəsizlik Nazirliyi arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında» Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

1. 1999-cu il martın 26-da Bakı şəhərində imzalanmış «Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi ilə Qırğızıstan Respublikası Milli Təhlükəsizlik Nazirliyi arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında» Saziş **təsdiq edilsin.**
2. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 14 may 1999-cu il


downloaded from KitabYurdu.org

## Z.M.Yusifzadənin
## Azərbaycan Respublikası
## Milli Təhlükəsizlik Nazirliyi Akademiyasının rəisi
## təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin
## SƏRƏNCAMI

Ziya Məmmədiyyə oğlu **Yusifzadə** Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi Akademiyasının rəisi təyin edilsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 iyun 1999-cu il



downloaded from KitabYurdu.org

## «Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

**Əlavələrlə**
**24 avqust 2002-cü il fərmanı,**
**9 yanvar 2004-cü il fərmanı.**

«Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, üç ay müddətində:

qüvvədə olan qanunveriçilik aktlarının «Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında» Azərbaycan Respublikası qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu haqda Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

«Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının



downloaded from KitabYurdu.org

layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

«Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinin ikinci abzasında nəzərdə tutulmuş Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin və psixotrop maddələrin ayrılıqda siyahısını hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin qanununun 6-cı maddəsinin üçüncü abzasında nəzərdə tutulmuş Azərbaycan Respublikasının ərazisində dövriyyəsi məhdudlaşdırılmış prekursorların siyahısını hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin qanunun 6-cı maddəsinin dördüncü abzasında nəzərdə tutulmuş istifadə edilməsinin məqsədi göstərilməklə dövriyyəsinə Azərbaycan Respublikasının ərazisində yol verilən narkotik vasitələrin və psixotrop maddələrin ayrılıqda siyahısını hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin qanunun 6-cı maddəsinin beşinci abzasında nəzərdə tutulmuş narkotik vasitələrin və psixotrop maddələrin istehsalında istifadə edilən və dövriyyəsinə nəzarət edilən avadanlığın siyahısını hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin qanunun 6-cı maddəsinin altıncı abzasında nəzərdə tutulmuş narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların saxlanılması, alınması, satılması, əldə edilməsi, bölüşdürülməsi, buraxılması, daşınması, göndərilməsi, onlardan istifadə edilməsi, habelə narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların dövriyyəsinə dair



downloaded from KitabYurdu.org

sənədlərin tərtib edilməsi, saxlanılması və onların dövriyyəsi ilə əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş digər əməliyyatların həyata keçirilməsi qaydasını təsdiq etsin;

həmin qanunun 6-cı maddəsinin yeddinci abzasında nəzərdə tutulmuş narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların hazırlanmasında istifadə edilən avadanlığın istehsalının, saxlanılmasının, daşınmasının, göndərilməsinin, satılmasının, əldə edilməsinin, istifadə edilməsinin, idxalının və ixracının şərtlərini və qaydasını təsdiq etsin;

həmin qanunun 6-cı maddəsinin səkkizinci abzasında nəzərdə tutulmuş narkotik vasitələrin və psixotrop maddələrin təcrübəvi hazırlanması qaydasını təsdiq etsin və bu fəaliyyətlə məşğul olan dövlət orqanlarının dairəsini müəyyən etsin;

həmin qanunun 6-cı maddəsinin doqquzuncu abzasında nəzərdə tutulmuş narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların Azərbaycan Respublikasının gömrük ərazisinə idxalı, ixracı və bu ərazidən tranzit nəql edilməsi qaydasını təsdiq etsin;

həmin qanunun 6-cı maddəsinin onuncu abzasında nəzərdə tutulmuş, müsadirə edilmiş narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların məhv edilməsi qaydasını təsdiq etsin;

həmin qanunun 6-cı maddəsinin on birinci abzasında nəzərdə tutulmuş narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların dövriyyəsinə, habelə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirak edən, o cümlədən narkomanlıq xəstəliyinə duçar olan şəxslərə dair ümummilli məlumat bankını təşkil etsin, həmin məlumat bankına məlumatların göndərilməsi və oradan məlumatların alınması qaydasını təsdiq etsin;


downloaded from KitabYurdu.org

həmin qanunun 6-cı maddəsinin on ikinci abzasında nəzərdə tutulmuş narkotik vasitələrin və psixotrop maddələrin tibbi məqsədlərlə istifadə edilməsi qaydasını və şərtlərini, habelə narkoloci xəstələr barəsində tibbi tədbirlərin tətbiq edilməsi qaydasını təsdiq etsin;

həmin qanunun 6-cı maddəsinin on üçüncü abzasında nəzərdə tutulmuş qanunsuz dövriyyədən müsadirə edilmiş, lakin dərman preparatları şəklində olduğuna və tibbi məqsədlərlə istifadə oluna biləcəyinə görə məhv edilməsi məqsədəuyğun olmayan narkotik vasitələrin və psixotrop maddələrin tibbi məqsədlərlə istifadə edilməsi üçün təhvil verilməsi qaydasını təsdiq etsin;

həmin qanunun 6-cı maddəsinin on dördüncü abzasında nəzərdə tutulmuş narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların istifadə edilməsi qaydalarını və şərtlərini, eləcə də tibbi tədbirlərin həyata keçirilməsi qaydalarını təsdiq etsin;

həmin qanunun 6-cı maddəsinin on beşinci abzasında nəzərdə tutulmuş narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə müvafiq proqramı hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin qanunun 11-ci maddəsinin 4-cü hissəsində nəzərdə tutulmuş müalicə qaydalarını təsdiq etsin;

həmin qanunun 16-cı maddəsinin 3-cü hissəsində nəzərdə tutulmuş narkomanlar üçün məhdudiyyətlər qoyulmuş peşə növlərinin və vəzifələrin siyahısını müəyyən etsin;

həmin qanunun 17-ci maddəsinin 3-cü hissəsində nəzərdə tutulmuş narkotik vasitələrin və psixotrop maddələrin şəxsi istehlak üçün nəzərdə tutulan miqdarını müəyyən etsin;



downloaded from KitabYurdu.org

həmin qanunun 21-ci maddəsinin 5-ci hissəsində nəzərdə tutulmuş tibbi müayinənin keçirilməsi qaydasını təsdiq etsin;

öz səlahiyyətləri daxilində «Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında» Azərbaycan Respublikası qanunundan irəli gələn məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə tapşırılsın ki, bir ay müddətində:

«Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin 4-cü hissəsində nəzərdə tutulmuş xəstəliklərin siyahısını təsdiq etsin.

3. Müəyyən edilsin ki:

«Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin 1-ci hissəsində, 6-cı maddəsinin 1-ci hissəsində, 9-cu maddəsinin 6-cı hissəsində, 11-ci maddəsinin 4-cü hissəsində «müalicə» sözündən sonra, 16-cı maddəsinin 3-cü hissəsində, 17-ci maddəsinin 3-cü hissəsində və 21-ci maddəsinin 5-ci hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

həmin qanunun 5-ci maddəsinin 3-cü hissəsində və 7-ci hissəsinin üçüncü və dördüncü cümlələrində, 11-ci maddəsinin 4-cü hissəsində «siyahısı» sözündən sonra və 27-ci maddəsinin 4-cü hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir;


downloaded from KitabYurdu.org

həmin qanunun 5-ci maddəsinin 5-ci hissəsində, 9-cu maddəsinin 4-cü hissəsində, 11-ci maddəsinin 6-cı hissəsində və 15-ci maddəsinin 2-ci hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir;

həmin qanunun 20-ci və 22-ci maddələrində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti həyata keçirirlər;

həmin qanunun 23-cü maddəsində, 24-cü maddəsinin 1-ci, 3-cü və 4-cü hissələrində, 25-ci maddəsində və 26-cı maddəsinin 1-ci hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi həyata keçirilər;

həmin qanunun 27-ci maddəsinin 2-ci hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi (Naxçıvan Muxtar Respublikası ərazisində Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi) və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirirlər.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 4 avqust 1999-cı il



downloaded from KitabYurdu.org

## «Terrorizmə qarşı mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

**Əlavələrlə**
**9 yanvar 2004-cü il fərmanı.**

«Terrorizmə qarşı mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının «Terrorizmə qarşı mübarizə haqqında» Azərbaycan Respublikası qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu haqda Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

öz səlahiyyətləri hüdudlarında «Terrorizmə qarşı mübarizə haqqında» Azərbaycan Respublikası qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki, «Terrorizmə qarşı mübarizə haqqında» Azərbaycan Respublikası qanununun:

5-ci maddəsinin birinci bəndində, 7-ci maddəsinin birinci, ikinci və yeddinci bəndlərində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;


downloaded from KitabYurdu.org

5-ci maddəsinin ikinci bəndində, 8-ci və 16-cı maddələrində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini və 14-cü maddəsinin birinci bəndinin 1-ci yarımbəndində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikası Ali Dövlət Hakimiyyəti və İdarəetmə Orqanlarının Baş Mühafizə İdarəsi, Azərbaycan Respublikasının Hərbi Əks-kəşfiyyat Xidməti öz səlahiyyətləri hüdudlarında həyata keçirilər;

9-cu maddəsinin birinci bəndinin 3-cü yarımbəndində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi həyata keçirilər;

13-cü maddəsinin dördüncü bəndində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 avqust 1999-cı il



downloaded from KitabYurdu.org

## Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi ilə Tacikistan Respublikası Milli Təhlükəsizlik Nazirliyi arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında Sazişi imzalamaq səlahiyyətinin verilməsi barədə

**Azərbaycan Respublikası Prezidentinin**
**SƏRƏNCAMI**

1. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi ilə Tacikistan Respublikası Milli Təhlükəsizlik Nazirliyi arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında Sazişi imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Namiq Rəşid oğlu **Abbasova** verilsin.

2. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın birinci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Namiq Rəşid oğlu Abbasova verilməsi barədə Tacikistan Respublikasının Xarici İşlər Nazirliyinə bildiriş göndərsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 sentyabr 1999-cu il



downloaded from KitabYurdu.org

**Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi ilə Belarus Respublikası Milli Təhlükəsizlik Komitəsi arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında Sazişi imzalamaq səlahiyyətinin verilməsi barədə**

**Azərbaycan Respublikası Prezidentinin**
**SƏRƏNCAMI**

1. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi ilə Belarus Respublikası Milli Təhlükəsizlik Komitəsi arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında Sazişi imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Namiq Rəşid oğlu **Abbasova** verilsin.
2. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın birinci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Namiq Rəşid oğlu Abbasova verilməsi barədə Belarus Respublikasının Xarici İşlər Nazirliyinə bildiriş göndərsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 sentyabr 1999-cu il



downloaded from KitabYurdu.org

## «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

**Əlavələrlə**
**24 avqust 2002-cü il fərmanı.**

«Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

qüvvədə olan qanunveriçilik aktlarının «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

«Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

«Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin II hissəsinə


downloaded from KitabYurdu.org

müvafiq olaraq həmin qanunun 10-cu maddəsinin I hissəsində nəzərdə tutulmuş əməliyyat-axtarış tədbirlərinin hansı təhqiqat orqanı tərəfindən və hansı həcmdə tətbiq edilməsi barəsində təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin qanunun 10-cu maddəsinin IX hissəsində nəzərdə tutulmuş əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsinə müvəkkil edilməmiş fiziki və hüquqi şəxslər tərəfindən gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrin işlənilməsi, istehsalı, satışı, alınması, ölkəyə gətirilməsi və ölkədən çıxarılması üçün xüsusi razılıq (lisenziya) verilməsi qaydalarını təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin qanunun 10-cu maddəsinin X hissəsində nəzərdə tutulmuş gizli informasiya alınması üçün xüsusi texniki vasitələrin növlərini müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin qanunun18-ci maddəsinin II hissəsində nəzərdə tutulmuş əməliyyat-axtarış fəaliyyəti üçün vəsaitlərin xərclənməsi qaydalarını və normalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin qanunun 18-ci maddəsinin III hissəsində nəzərdə tutulmuş əməliyyat-axtarış subyektlərinin maddi-texniki təminatının qaydalarını və normalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

öz səlahiyyətləri daxilində «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri həll etsin.



downloaded from KitabYurdu.org

2. Müəyyən edilsin ki:

«Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin II hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir:

həmin qanunun 10-cu maddəsinin IX və X hissələrində, 18-ci maddəsinin II və III hissələrində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

həmin qanunun 5-ci maddəsinin IV hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi, Azərbaycan Respublikası Hərbi Əks-kəşfiyyat Xidməti, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi (Naxçıvan Muxtar Respublikası ərazisində Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi), Azərbaycan Respublikası Ali Dövlət Hakimiyyəti və İdarəetmə Orqanlarını Baş Mühafizə İdarəsi və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi həyata keçirilər.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 11 noyabr 1999-cu il



downloaded from KitabYurdu.org

## 1999-cu il sentyabrın 30-da Sankt-Peterburq şəhərində imzalanmış "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi ilə Tacikistan Respublikasının Təhlükəsizlik Nazirliyi arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında" Sazişin təsdiq edilməsi barədə

**Azərbaycan Respublikası Prezidentinin**
**SƏRƏNCAMI**

1. 1999-cu il sentyabrın 30-da Sankt-Peterburq şəhərində imzalanmış "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi ilə Tacikistan Respublikasının Təhlükəsizlik Nazirliyi arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında" Saziş **təsdiq edilsin**.
2. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 16 noyabr 1999-cu il



downloaded from KitabYurdu.org

## 1999-cu il sentyabrın 30-da Sankt-Peterburq şəhərində imzalanmış "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi ilə Belarus Respublikasının Dövlət Təhlükəsizlik Komitəsi arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında" Sazişin təsdiq edilməsi barədə

**Azərbaycan Respublikası Prezidentinin**
**SƏRƏNCAMI**

1. 1999-cu il sentyabrın 30-da Sankt-Peterburq şəhərində imzalanmış "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi ilə Belarus Respublikasının Dövlət Təhlükəsizlik Komitəsi arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında" Saziş **təsdiq edilsin**.
2. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 16 noyabr 1999-cu il



downloaded from KitabYurdu.org

**Azərbaycan Respublikası**
**Milli Təhlükəsizlik Nazirliyi Akademiyasının**
**fəaliyyətinin təmin edilməsinin bəzi məsələləri**
**haqqında**

**Azərbaycan Respublikası Prezidentinin**
**SƏRƏNCAMI**

1. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi Akademiyasının hərbi qulluqçularının və professor-müəllim heyətinin fəaliyyətinin təmin edilməsi məqsədi ilə **qərara alıram:**
2. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi Akademiyasının rəisinin vəzifə maaşı Azərbaycan Respublikası milli təhlükəsizlik naziri müavininin vəzifə maaşına bərabər müəyyən edilsin.
3. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi Akademiyasının hərbi qulluqçularının vəzifə maaşları Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin tabeliyində olan hərbi qurumun hərbi qulluqçularının vəzifə maaşlarına bərabər müəyyən edilsin.
4. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi Akademiyasının hərbi xidmətdə olmayan professor-müəllim heyətinin və digər işçilərinin vəzifə maaşları mərkəzi icra hakimiyyəti orqanlarının müvafiq işçilərinin vəzifə maaşlarına bərabər müəyyən edilsin.
5. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi Akademiyası üçün ayrılmış 240 əlavə ştat vahidinin hərbi qulluqçuların kateqoriyaları üzrə aşağıdakı tərkibi təsdiq edilsin:


downloaded from KitabYurdu.org

| | |
|---|---|
| General-leytenant | - 1 |
| General-mayor | - 2 |
| Zabitlər | - 175 |
| Gizirlər və müddətdən artıq xidməti hərbi qulluqçuları | - 62 |

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.
7. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 dekabr 1999-ci il



downloaded from KitabYurdu.org

## T.B.Babayevin Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini – Əks-kəşfiyyat İdarəsinin rəisi vəzifəsinə təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Tofiq Behbud oğlu **Babayev** Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini – Əks-kəşfiyyat İdarəsinin rəisi vəzifəsinə təyin edilsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikası Prezidenti**
Bakı şəhəri 2 iyun 2000-ci il



downloaded from KitabYurdu.org

## Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi Sərhəd Qoşunları əməkdaşlarının peşə bayramı gününün təsis edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

1919-cu ildə Azərbaycan Demokratik Respublikasının ilk sərhəd mühafizəsinin təsis edildiyi gün - ***18 avqust*** Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi sərhəd qoşunları əməkdaşlarının peşə bayramı günü elan edilsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 16 avqust 2000-ci il



downloaded from KitabYurdu.org

## «Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi ilə Rusiya Federasiyasının Prezidenti yanında Hökumət Rabitəsi və İnformasiya Federal Agentliyi arasında informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində əməkdaşlıq haqqında Saziş»i imzalamaq səlahiyyətinin verilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

1. «Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi ilə Rusiya Federasiyasının Prezidenti yanında Hökumət Rabitəsi və İnformasiya Federal Agentliyi arasında informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində əməkdaşlıq haqqında Saziş»i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Namiq Rəşid oğlu **Abbasova** verilsin.
2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Namiq Rəşid oğlu Abbasova verilməsi barədə Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinə məlumat versin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 7 yanvar 2001-ci il



downloaded from KitabYurdu.org

## 2001-ci il yanvarın 9-da Bakı şəhərində Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında imzalanmış sənədlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

1. 2001-ci il yanvarın 9-da Bakı şəhərində Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1) Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında vergi qanunverijiliyinə əməl edilməsi məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş;

2) Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında hökumət rabitəsi sahəsində əməkdaşlıq haqqında Saziş;

3) Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi və Rusiya Federasiyası Prezidenti yanında Hökumət Rabitəsi və İnformasiya Federal Agentliyi arasında informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində əməkdaşlıq haqqında Saziş.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndinin 1-ci və 2-ci yarımbəndlərində göstərilən sənədlərin həyata keçirilməsi ilə əlaqədar lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndinin 3-cü yarımbəndində göstərilən Sazişin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.



downloaded from KitabYurdu.org

4. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci bəndində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Rusiya Federasiyasının Hökumətini xəbərdar etsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 22 yanvar 2001-ci il



downloaded from KitabYurdu.org

**A.R.Novruzovun
Azərbaycan Respublikasının
milli təhlükəsizlik nazirinin müavini - Sərhəd
Qoşunlarının Komandanı vəzifəsindən azad edilməsi
haqqında**

**Azərbaycan Respublikası Prezidentinin
FƏRMANI**

Abbasəli Ramazan oğlu **Novruzov** Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini - sərhəd qoşunlarının komandanı vəzifəsindən azad edilsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 27 mart 2001-ci il



downloaded from KitabYurdu.org

## E.İ.Quliyevin Azərbaycan Respublikasının milli təhlükəsizlik nazirinin müavini - Sərhəd Qoşunlarının Komandanı vəzifəsinə təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

Elçin İsaağa oğlu Quliyev Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini - sərhəd qoşunlarının komandanı təyin edilsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 27 mart 2001-ci il



downloaded from KitabYurdu.org

## Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında

## Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

**Əlavələrlə 24 avqust 2002-cü il fərmanı,**
**9 yanvar 2004-cü il fərmanı.**

«Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli Qanununa müvafiq əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektləri arasında səlahiyyət bölgüsünün aparılması məqsədi ilə **qərara alıram**:

I. «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin birinci hissəsində nəzərdə tutulmuş əməliyyat-axtarış tədbirləri Azərbaycan Respublikasının Milli Təhlükəsizlik, Daxili İşlər, Ədliyyə (Naxçıvan Muxtar Respublikası ərazisində Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi), Vergilər nazirlikləri, Dövlət Sərhəd Xidməti, Dövlət Gömrük Komitəsi, Hərbi Əks-kəşfiyyat Xidməti, Ali Dövlət Hakimiyyəti və İdarəetmə Orqanlarının Baş Mühafizə İdarəsi tərəfindən bu orqanların səlahiyyətləri daxilində, əməliyyat-axtarış subyektlərinin tələbatları və aşağıdakı məhdudiyyətlər nəzərə alınmaqla tətbiq edilsin:

- poçt, teleqraf və digər göndərişlərin yoxlanılmasını, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılmasını Azərbaycan Respublikasının



downloaded from KitabYurdu.org

Milli Təhlükəsizlik Nazirliyi, beynəlxalq göndərişlərin yoxlanılmasını isə həmçinin Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi həyata keçirirlər;

- telefon danışıqlarına qulaqasmanı Azərbaycan Respublikasının Milli Təhlükəsizlik və Daxili İşlər Nazirlikləri həyata keçirirlər;

- insanların güdülməsini, binaların, o cümlədən yaşayış binalarının, habelə digər qapalı tikililərin, qurğuların, torpaq sahələrinin, nəqliyyat vasitələrinin və digər obyektlərin müşahidəsini Azərbaycan Respublikasının Milli Təhlükəsizlik və Daxili İşlər Nazirlikləri, Azərbaycan Respublikasının mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti həyata keçirirlər.

- məhkumların məktublarının yoxlanılmasını Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Naxçıvan Muxtar Respublikası ərazisində Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi həyata keçirirlər;

- hərbi hissələrdə və hərbi idarələrdə əməliyyat-axtarış tədbirlərinin tətbiqini təhlükəsizlik orqanları üçün müəyyən edilmiş həcmdə Azərbaycan Respublikasının Hərbi Əks-kəşfiyyat Xidməti həyata keçirir;

- mühafizə edilən şəxslərin və obyektlərin təhlükəsizliyinin təmin edilməsi sahəsində əməliyyat-axtarış fəaliyyətini Azərbaycan Respublikası Ali Dövlət Hakimiyyəti və İdarəetmə Orqanlarını Baş Mühafizə İdarəsi həyata keçirir.

II. Əməliyyat-axtarış fəaliyyəti prosesində hüquqi şəxsin yaradılması Azərbaycan Respublikasının Milli Təhlükəsizlik və Daxili İşlər Nazirliklərinə həvalə edilir.

III. Əməliyyat-axtarış fəaliyyətinin subyektləri bu Fərmanın 1-ci bəndi ilə tətbiqi məhdudlaşdırılmış əməliyyat-axtarış tədbirlərini qanunvericiliklə müəyyən edilmiş



downloaded from KitabYurdu.org

qaydada, onların icrası həvalə edilmiş orqanlara sorğu göndərməklə həyata keçirirlər.

IV. Rabitə xidmətləri göstərən hüquqi və fiziki şəxslər üçün rabitə şəbəkələrində əməliyyat-axtarış tədbirlərinin təminatına dair texniki-təşkilati şərtlərin müəyyənləşdirilməsini və bu tədbirlərin keçirilməsini təmin edən avadanlıqların istismarını Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi həyata keçirir.

V. Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 4 oktyabr tarixli 637 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin və onları verən icra hakimiyyəti orqanlarının Siyahısı»na aşağıdakı məzmunda 79-cu bənd əlavə edilsin:

| | |
|---|---|
| «79. Əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsinə müvəkkil edilməmiş hüquqi və fiziki şəxslər tərəfindən gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrin gətirilməsi və ölkədən çıxarılması. | Milli Təhlükəsizlik Nazirliyi |

VI. Bu Fərman imzalandığı gündər qüvvəyə minir.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 19 iyun 2001-ci il



downloaded from KitabYurdu.org

## E.İ.Quliyevə general-mayor hərbi rütbəsinin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini - Sərhəd Qoşunları komandanı polkovnik Elçin İsaağa oğlu Quliyevə general-mayor hərbi rütbəsi verilsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 15 avqust 2001-ci il



downloaded from KitabYurdu.org

## İ.H.Xəlilova general-mayor hərbi rütbəsinin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi Sərhəd Qoşunları komandanının I müavini - Sərhəd Qoşunları Qərargahının rəisi polkovnik İnayət Hidayət oğlu Xəlilova general-mayor hərbi rütbəsi verilsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 15 avqust 2001-ci il



downloaded from KitabYurdu.org

**Azərbaycan Respublikası**
**Milli Təhlükəsizlik Nazirliyinin hərbi qulluqçuları**
**R.R.Lələyevin və X.Q.Həsənovun**
**"İgidliyə görə" medalı ilə təltif edilməsi**
**haqqında**

**Azərbaycan Respublikası Prezidentinin**
**FƏRMANI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının dövlət sərhədlərinin qorunmasında müqəddəs əsgəri və xidməti borclarını yerinə yetirərkən fərqləndiklərinə görə Milli Təhlükəsizlik Nazirliyi Sərhəd Qoşunlarının aşağıdakı hərbi qulluqçuları ***"İgidliyə görə" medalı*** ilə təltif edilsinlər ***(ölümündən sonra):***

1. Lələyev Ramin Rafiq oğlu - sıravi
2. Həsənov Xəlil Qədir oğlu - sıravi

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 avqust 2001-ci il



downloaded from KitabYurdu.org

## N.R.Abbasova general-polkovnik hərbi rütbəsinin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

Azərbaycan Respublikası milli təhlükəsizlik naziri Namiq Rəşid oğlu Abbasova general-polkovnik hərbi rütbəsi verilsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 15 yanvar 2002-ci il



downloaded from KitabYurdu.org

## T.B.Babayevə general-mayor hərbi rütbəsinin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini Tofiq Behbud oğlu Babayevə general-mayor hərbi rütbəsi verilsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 yanvar 2002-ci il



downloaded from KitabYurdu.org

## B.N.Zeynalova general-mayor hərbi rütbəsinin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini Baxış Novruzəli oğlu Zeynalova general-mayor hərbi rütbəsi verilsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 yanvar 2002-ci il



downloaded from KitabYurdu.org

**F.E.İsgəndərovun**
**Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini təyin edilməsi haqqında**

**Azərbaycan Respublikası Prezidentinin**
**SƏRƏNCAMI**

Fuad Eldar oğlu İsgəndərov Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini təyin edilsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 yanvar 2002-ci il.



downloaded from KitabYurdu.org

## Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin bir qrup hərbi qulluqçusunun təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

Azərbaycan Respublikasının Konstitusiya dövlət quruluşunun müdafiəsində, milli təhlükəsizliyinin təmin edilməsində, xarici ölkələrin xüsusi xidmət orqanlarının kəşfiyyat, terror-təxribat və digər pozuculuq fəaliyyətinin qarşısının alınmasında, dövlət sərhədinin mühafizəsində xüsusi xidmətlərinə görə Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

***"Azərbaycan Bayrağı" ordeni** ilə:*

1. Allahverdiyev İskəndər İmamverdi oğlu - general-mayor
2. Cəbrayılov Asif Mikayıl oğlu - polkovnik
3. Əhmədov Araz Süleyman oğlu - polkovnik-leytenant
4. Əliyev Dilavər Nemət oğlu - polkovnik
5. Fərzəliyev Sultan Cavanşir oğlu - mayor
6. Hacıyev Əli Zamin oğlu - polkovnik
7. Hətəmzadə Pərviz Əbdül Əhməd oğlu – polkovnik
8. Quliyev Elçin İsaağa oğlu - general-mayor
9. Məmmədəliyev Eldar Əli oğlu - polkovnik
10. Nağıyev Əli Nağı oğlu - polkovnik
11. Zeynalov Baxış Novruzəli oğlu - general-mayor



downloaded from KitabYurdu.org

***"Vətən uğrunda" medalı** ilə:*

1. Ağayev Həsənağa Hacıbala oğlu - polkovnik
2. Alxasov Nazim Balaşərif oğlu - polkovnik
3. Babayev Tofiq Behbud oğlu - general-mayor
4. Bağırov Xaqani Akif oğlu - polkovnik
5. Bağırov İsmayıl Məmmədəli oğlu - polkovnik
6. Əhmədbəyov Rauf Fuad oğlu - polkovnik-leytenant
7. Əliyev Vahid Əli oğlu - polkovnik
8. Fətullayev İdrət Xanbaba oğlu – polkovnik-leytenant
9. Həsənov Samir Tələt oğlu - polkovnik-leytenant
10. Həsənov Şərafət Hörmət oğlu - polkovnik
11. Hüseynov Telman Qulaməli oğlu - ədliyyə polkovnik-leytenantı
12. Hüseynov Yaşar Məmmədəli oğlu - polkovnik
13. Xanbabayev Ziyafət Səhərbəy oğlu - polkovnik-leytenant
14. İskəndərov Fuad Eldar oğlu - polkovnik
15. İsmayılov Allahverən İbiş oğlu - polkovnik
16. İsmayılov İsfəndiyar Əhməd oğlu - polkovnik
17. Kazımzadə Elçin Müzadil oğlu - kapitan
18. Kərimov Fizuli Nəriman oğlu - polkovnik
19. Qasımov Seyfulla Şamil oğlu - polkovnik
20. Qocayev Natiq Şahmar oğlu - mayor
21. Quliyev Elçin İbrahim oğlu - mayor
22. Mahmudov İlqar Siyavuş oğlu - polkovnik-leytenant
23. Məmmədov Firdovsi Firudin oğlu - polkovnik
24. Mirvətova Natəvan Mürsəl qızı - polkovnik-leytenant
25. Rəsulzadə Adil Yusif oğlu - polkovnik-leytenant
26. Rzayev Rövşən İbrahim oğlu - polkovnik-leytenant



downloaded from KitabYurdu.org

27. Səfərov Rəhim Məmmədrza oğlu - tibb xidməti polkovniki
28. Səmədov Ramiz Əlixan oğlu - polkovnik
29. Şabanov Gündüz Şaban oğlu - polkovnik-leytenant

***"Hərbi xidmətlərə görə" medalı*** ilə:

1. Abbasova Zeynəb Sabir qızı - gizir
2. Abdullayev İsmayıl Əli oğlu - mayor
3. Ağakişiyev Vahid Balazayır oğlu - baş leytenant
4. Atakişiyev Niyazi İslam oğlu - polkovnik
5. Babayev Lətif Şükür oğlu - mayor
6. Əhmədov Vidadi Abdulla oğlu - polkovnik-leytenant
7. Ələsgərov Elmar Eldar oğlu - polkovnik-leytenant
8. Əliyev Etibar Əli oğlu - polkovnik-leytenant
9. Əliyev İlqar Mustafa oğlu - kapitan
10. Əliyev Taryel Əhmədəli oğlu - ədliyyə mayoru
11. Əzizov Eldar Həsən oğlu - polkovnik
12. Güləliyev Vüqar Muğan oğlu - mayor
13. Hacıyev İlqar Əziz oğlu - mayor
14. Hacıyeva Rasimə Ağəli qızı - mayor
15. Həsənov Elşad Yolçu oğlu - polkovnik
16. Həsənov Elşən Bəşir oğlu - mayor
17. Xəlilov Tahir Həmid oğlu - kapitan
18. İsaqov Əliyənnaqi Əhliman oğlu - mayor
19. Kazımov Roman Əkbər oğlu - polkovnik
20. Kərimov Aydın Üzeyir oğlu - mayor
21. Kərimov Novruz Ağakərim oğlu - ədliyyə polkovnik-leytenantı
22. Qafarova Sona Əlisahib qızı - kapitan
23. Quliyev Ramiz Mürvət oğlu -polkovnik-leytenant
24. Manafov Aydın Manaf oğlu - kapitan



downloaded from KitabYurdu.org

25. Məmmədov Mehdi Əhməd oğlu - mayor
26. Məmmədov Səlim İmran oğlu - mayor
27. Məmmədov Şahin Qara oğlu – polkovnik-leytenant
28. Mikayılov Elxan Tofiq oğlu - kapitan
29. Mustafayev Malik Nəriman oğlu - polkovnik
30. Musayev Nadir Həzrət oğlu - ədliyyə mayoru
31. Nəsirov Elman Fərman oğlu - polkovnik
32. Nizamov Mehman Lazir oğlu - mayor
33. Rəhimov Gülağa Gülverdi oğlu - polkovnik-leytenant
34. Rəhimova Gülsurə Vəzir qızı - mayor
35. Tağızadə Nail Rahil oğlu - mayor

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 27 mart 2002-ci il



downloaded from KitabYurdu.org

## 2002-ci il martın 26-da Bakı şəhərində Azərbaycan Respublikası ilə Gürcüstan arasında imzalanmış sənədlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

1. 2002-ci il martın 26-da Bakı şəhərində Azərbaycan Respublikası ilə Gürcüstan arasında imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1) Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Gürcüstanın Dövlət Sərhədinin Mühafizəsi Dövlət Departamenti arasında Azərbaycan-Gürcüstan dövlət sərhədində sərhəd nəzarəti sahəsində əməkdaşlıq haqqında Protokol;

2) Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Gürcüstanın Dövlət Sərhədinin Mühafizəsi Dövlət Departamenti arasında Azərbaycan-Gürcüstan dövlət sərhədində vəziyyət barədə məlumat mübadiləsi qaydası haqqında protokol;

3) Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Gürcüstanın Dövlət Sərhədinin Mühafizəsi Dövlət Departamenti arasında əməliyyat-axtarış fəaliyyətində əməkdaşlıq haqqında Protokol.

2. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədlərin həyata keçirilməsi üçün tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili



downloaded from KitabYurdu.org

prosedurların yerinə yetirilməsi haqqında Gürcüstan tərəfini xəbərdar etsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 12 iyun 2002-ci il



downloaded from KitabYurdu.org

## "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və İran İslam Respublikasının Daxili İşlər Nazirliyi arasında sərhəd məsələləri, narkotik vasitələr, psixotrop və digər maddələrin qaçaqmalçılığına qarşı mübarizə sahəsində Əməkdaşlıq Memorandumu"nun təsdiq edilməsi barədə

**Azərbaycan Respublikası Prezidentinin**
**SƏRƏNCAMI**

1. 2002-ci il yanvarın 22-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və İran İslam Respublikasının Daxili İşlər Nazirliyi arasında sərhəd məsələləri, narkotik vasitələr, psixotrop və digər maddələrin qaçaqmalçılığına qarşı mübarizə sahəsində Əməkdaşlıq Memorandumu" **təsdiq edilsin**.
2. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 12 iyun 2002-ci il



downloaded from KitabYurdu.org

## Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və İran İslam Respublikasının Təhlükəsizlik Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandumu imzalamaq səlahiyyətinin verilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

1. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və İran İslam Respublikasının Təhlükəsizlik Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandumu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Namiq Rəşid oğlu **Abbasova** verilsin.
2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Namiq Rəşid oğlu Abbasova verilməsi barədə İran İslam Respublikasının Xarici İşlər Nazirliyinə bildiriş göndərsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 24 iyul 2002-ci il



downloaded from KitabYurdu.org

**Azərbaycan Respublikası**
**Dövlət Sərhəd Xidmətinin yaradılması**
**haqqında**

**Azərbaycan Respublikası Prezidentinin**
**FƏRMANI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 7-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Sərhəd Qoşunları İdarəsinin əsasında Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti yaradılsın.
2. Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinə tapşırılsın ki, bir ay müddətində Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti haqqında Əsasnaməni, xidmətin strukturunu və işçilərin ümumi say tərkibini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmandan irəli gələn məsələləri həll etsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 31 iyul 2002-ci il



downloaded from KitabYurdu.org

**Azərbaycan Respublikası Hərbi Əks-Kəşfiyyat Xidmətinin Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin tərkibinə daxil edilməsi haqqında**

**Azərbaycan Respublikası Prezidentinin**
**FƏRMANI**

Azərbaycan Respublikası Hərbi Əks-Kəşfiyyat Xidməti Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin tərkibinə daxil edilsin.

1. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinə tapşırılsın ki, bir ay müddətində nazirliyin əsasnaməsini, strukturunu və işçilərin ümumi say tərkibini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 31 iyul 2002-ci il



downloaded from KitabYurdu.org

## E.İ.Quliyevin Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini – Sərhəd Qoşunlarının Komandanı vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

Elçin İsaağa oğlu **Quliyev** Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini - Sərhəd Qoşunlarının komandanı vəzifəsindən azad edilsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 31 iyul 2002-ci il



downloaded from KitabYurdu.org

## E.İ.Quliyevin Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin rəisi – Sərhəd Qoşunlarının Komandanı təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

Elçin İsaağa oğlu **Quliyev** Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin rəisi - Sərhəd Qoşunlarının komandanı təyin edilsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 31 iyul 2002-ci il



downloaded from KitabYurdu.org

**Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi ilə Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidməti arasında qarşılıqlı fəaliyyət və əməkdaşlıq haqqında Sazişə əlavə 10 saylı Protokol»u imzalamaq səlahiyyətinin verilməsi barədə**

**Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI**

1. «Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi ilə Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidməti arasında qarşılıqlı fəaliyyət və əməkdaşlıq haqqında Sazişə əlavə 10 saylı Protokol»u imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Namiq Rəşid oğlu Abbasova verilsin.
2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Namiq Rəşid oğlu Abbasova verilməsi barədə Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinə bildiriş göndərsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 oktyabr 2002-ci il



downloaded from KitabYurdu.org

## Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının və mülki işçilərinin vəzifə (tarif) maaşlarının, hərbi rütbəyə görə maaşlarının və Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının artırılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının, Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının və mülki işçilərinin sosial mühafizəsini gücləndirmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının və mülki işçilərinin vəzifə (tarif) maaşları, hərbi rütbəyə görə maaşları və Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin hərbi qulluqçularının hərbi rütbəyə görə maaşları Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və mülki işçilərinin vəzifə (tarif) maaşları və hərbi rütbəyə görə maaşları səviyyəsində müəyyən edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:



downloaded from KitabYurdu.org

- bu Sərəncamın 1-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının, Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarını təsdiq etsin;
- bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Bu Sərəncam 2002-ci il noyabr ayının 1-dən qüvvəyə minir.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 8 oktyabr 2002-ci il



downloaded from KitabYurdu.org

**Azərbaycan Respublikası**
**Milli Təhlükəsizlik Nazirliyi və Rusiya Federasiyasının Xarici Kəşfiyyat Xidməti arasında arxiv materiallarının mübadiləsi sahəsində əməkdaşlıq haqqında Protokolu imzalamaq səlahiyyətinin verilməsi barədə**

**Azərbaycan Respublikası Prezidentinin**
**SƏRƏNCAMI**

1. «Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi və Rusiya Federasiyasının Xarici Kəşfiyyat Xidməti arasında arxiv materiallarının mübadiləsi sahəsində əməkdaşlıq haqqında Protokolu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Namiq Rəşid oğlu Abbasova verilsin.
2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Namiq Rəşid oğlu Abbasova verilməsi barədə Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinə bildiriş göndərsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 12 oktyabr 2002-ci il



downloaded from KitabYurdu.org

**Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və İran İslam Respublikasının Təhlükəsizlik Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum»un təsdiq edilməsi barədə**

**Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI**

1. 2002-ci il iyulun 25-də Bakı şəhərində imzalanmış «Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və İran İslam Respublikasının Təhlükəsizlik Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum» təsdiq edilsin.
2. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədin həyata keçirilməsini təmin etmək üçün lazımi tədbirlər görsün.
3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci bəndində göstərilən sənədin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında İran İslam Respublikasının Hökumətini xəbərdar etsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 21 fevral 2003-cü il



downloaded from KitabYurdu.org

## 2002-ci il oktyabrın 13-də Soçi şəhərində imzalanmış "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Rusiya Federasiyasının Xarici Kəşfiyyat İdarəsi arasında arxiv materiallarının mübadiləsi sahəsində əməkdaşlıq haqqında Protokol"un təsdiq edilməsi barədə

**Azərbaycan Respublikası Prezidentinin**
**SƏRƏNCAMI**

1. 2002-ci il oktyabrın 13-də Soçi şəhərində imzalanmış "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Rusiya Federasiyasının Xarici Kəşfiyyat İdarəsi arasında arxiv materiallarının mübadiləsi sahəsində əməkdaşlıq haqqında Protokol" **təsdiq edilsin**.
2. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsini təmin etsin.
3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Rusiya Federasiyası tərəfini xəbərdar etsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 21 fevral 2003-cü il



downloaded from KitabYurdu.org

**N.R.Abbasovun**
**Azərbaycan Respublikasının**
**milli təhlükəsizlik naziri təyin edilməsi haqqında**

**Azərbaycan Respublikası Prezidentinin**
**SƏRƏNCAMI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Namiq Rəşid oğlu **Abbasov** Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri təyin edilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 noyabr 2003-cü il


downloaded from KitabYurdu.org

## 2003-cü il iyulun 10-da Gəncə şəhərində imzalanmış «Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Gürcüstan Respublikasının Dövlət Təhlükəsizlik Xidməti arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında Saziş»ə əlavə 1 nömrəli Protokol»un təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

1. 2003-cü il iyulun 10-da Gəncə şəhərində imzalanmış «Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Gürcüstan Respublikasının Dövlət Təhlükəsizlik Xidməti arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında Saziş»ə əlavə 1 nömrəli Protokol» təsdiq edilsin.
2. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişə əlavə 1 nömrəli Protokolun həyata keçirilməsini təmin etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 15 noyabr 2003-cü il



downloaded from KitabYurdu.org

**Azərbaycan Respublikası**
**Milli Təhlükəsizlik Nazirliyinin**
**bir qrup əməkdaşının təltif edilməsi**
**haqqında**

**Azərbaycan Respublikası Prezidentinin**
**SƏRƏNCAMI**

Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsində, xarici xüsusi xidmət orqanlarının, təşkilatlarının, ayrı-ayrı şəxslərin terror-təxribat və pozuculuq fəaliyyətinin aşkarlanmasında və qarşısının alınmasında xidmətlərinə görə Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

***"Azərbaycan bayrağı" ordeni*** *ilə:*
Ağayev Vaqif Böyükağa oğlu - polkovnik
Həsənov Şərafət Hörmət oğlu - polkovnik
Yusifzadə Ziya Məmmədiyyə oğlu - general-leytenant

***"Vətən uğrunda" medalı*** *ilə:*
Abdullayev Elçin Rəhim oğlu - kapitan
Abdullayev İsmayıl Əli oğlu - polkovnik-leytenant
Aslanov Nazim Əliağa oğlu - mayor
Babayev Ağababa Ənvər oğlu - polkovnik-leytenant
Babayev Rövşən Rafail oğlu - kapitan
Ələkbərov Sahib Yunus oğlu –
ədliyyə polkovnik-leytenantı
Ələsgərov Vəli Məmiş oğlu - polkovnik-leytenant
Əliyev Füzuli Zülfüqar oğlu - kapitan
Əliyev İlqar Mustafa oğlu - kapitan
Əliyev Rafət Nadir oğlu - mayor
Əliyev Rauf Əbdüloviç - mayor



downloaded from KitabYurdu.org

Əliyev Rəşad Qədim oğlu - polkovnik-leytenant
Hacıyev Bəxtiyar Zabil oğlu - ədliyyə mayoru
Hacıyev Tofiq Əkrəm oğlu - polkovnik-leytenant
Həsənov Qalib Rafiq oğlu - kapitan
Xələfov Rauf Rafiq oğlu - kapitan
İbrahimov Abdulla Musa oğlu - polkovnik-leytenant
İmanverdiyev Fazil Əjdər oğlu -polkovnik-leytenant
Quliyev Yaşar Mail oğlu - polkovnik-leytenant
Məmmədov Eldar Ənvər oğlu - polkovnik
Məmmədov Kamran Cəlal oğlu -polkovnik leytenant
Məmmədov Tələt Ramiz oğlu - polkovnik-leytenant
Muradov Tengiz Yavuz oğlu - polkovnik-leytenant
Musayev Mehman Fikrət oğlu - mayor
Musayev Toğrul Əbülfəz oğlu - baş leytenant
Nağıyev Əli Nağı oğlu - polkovnik
Nağıyev Sahib Novruz oğlu - polkovnik-leytenant

***"İgidliyə görə" medalı** ilə:*

Əhmədov Faiq Məhəmməd oğlu - polkovnik-leytenant
Əzizov Cəmil Şakir oğlu - gizir
Hacıyev Üzeyir Telman oğlu - kapitan
Qurbanov Vaqif Bağı oğlu - kapitan
Məmmədov Elşən Fəxrəddin oğlu - gizir

***"Hərbi xidmətlərə görə" medalı** ilə:*

Allahverdiyev Natiq Yaşar oğlu - mayor
Əliyev Nizami Nadir oğlu - leytenant

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 25 mart 2004-cü il



downloaded from KitabYurdu.org

## Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Əsasnaməsinin, strukturunun və hərbi qulluqçularının və işçilərinin ümumi say tərkibinin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin fəaliyyətini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Əsasnaməsi, strukturu və hərbi qulluqçularının və işçilərinin ümumi say tərkibi təsdiq edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:
   - bir ay müddətində normativ-hüquqi aktların bu fərmana uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
   - bu fərmandan irəli gələn digər məsələləri həll etsin.
3. Bu fərman imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 27 mart 2004-cü il



downloaded from KitabYurdu.org

**2002-ci il sentyabrın 30-da Moskva şəhərində imzalanmış "Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi və Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidməti arasında qarşılıqlı fəaliyyət və əməkdaşlıq haqqında Sazişə əlavə 10 saylı Protokol"un təsdiq edilməsi barədə**

**Azərbaycan Respublikası Prezidentinin**
**SƏRƏNCAMI**

1. 2002-ci il sentyabrın 30-da Moskva şəhərində imzalanmış "Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi və Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidməti arasında qarşılıqlı fəaliyyət və əməkdaşlıq haqqında Sazişə əlavə 10 saylı Protokol" **təsdiq edilsin**.
2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Rusiya Federasiyası tərəfini xəbərdar etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 12 aprel 2004-cü il



downloaded from KitabYurdu.org

## «Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukrayna Təhlükəsizlik Xidməti arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında» Sazişə dəyişikliklərin edilməsi haqqında Protokolu və «Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukrayna Təhlükəsizlik Xidməti arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında» Sazişə əlavə Protokolu imzalamaq səlahiyyətinin verilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

1. «Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukrayna Təhlükəsizlik Xidməti arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında» Sazişə dəyişikliklərin edilməsi haqqında Protokolu və «Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukrayna Təhlükəsizlik Xidməti arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında» Sazişə əlavə Protokolu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Namiq Rəşid oğlu **Abbasova** verilsin.
2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolları imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Namiq Rəşid oğlu Abbasova verilməsi barədə Ukrayna tərəfinə müvafiq bildiriş göndərsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 26 aprel 2004-cü il



downloaded from KitabYurdu.org

## Hərbi xidmət sahəsində bəzi medallarla təltif edilmə qaydası haqqında

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

1. ***«Hərbi xidmətdə fərqlənməyə görə», «Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə», «Qüsursuz xidmətə görə», «Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Veteranı», «Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)» medalları*** ilə təltif edilmə səlahiyyəti Azərbaycan Respublikasının müdafiə nazirinə, habelə səlahiyyəti çərçivəsində Azərbaycan Respublikasının milli təhlükəsizlik nazirinə, Azərbaycan Respublikasının daxili işlər nazirinə, Azərbaycan Respublikasının ədliyyə nazirinə, Dövlət Sərhəd Xidmətinin rəisi – Sərhəd Qoşunları komandanına və Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin rəisinə verilsin.
2. «Hərbi xidmət sahəsində bəzi medallarla təltif edilmə qaydası haqqında» Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 13 yanvar tarixli 1123 nömrəli Sərəncamı qüvvədən düşmüş hesab edilsin.
3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 25 iyun 2004-cü il



downloaded from KitabYurdu.org

## 2004-cü il aprelin 26-da Kiyev şəhərində Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukraynanın Təhlükəsizlik Xidməti arasında imzalanmış Protokolların təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

1. 2004-cü il aprelin 26-da Kiyev şəhərində Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukraynanın Təhlükəsizlik Xidməti arasında imzalanmış aşağıdakı Protokollar **təsdiq edilsin**:

   1.1. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukraynanın Təhlükəsizlik Xidməti arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında Sazişə dəyişikliklərin edilməsi haqqında Protokol;

   1.2. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukraynanın Təhlükəsizlik Xidməti arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında Sazişə əlavə 2 nömrəli Protokol.

2. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolların həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Ukrayna tərəfini xəbərdar etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 iyun 2004-cü il



downloaded from KitabYurdu.org

**Azərbaycan Respublikası**
**Milli Təhlükəsizlik Nazirliyinin**
**hərbi qulluqçularının və mülki işçilərinin aylıq**
**vəzifə maaşlarının artırılması haqqında**

**Azərbaycan Respublikası Prezidentinin**
**SƏRƏNCAMI**

Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin hərbi qulluqçularının və mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin hərbi qulluqçularının və mülki işçilərinin aylıq vəzifə maaşları orta hesabla 1,5 dəfə, informasiya təhlükəsizliyi və antiterror qurumlarının hərbi qulluqçularının aylıq vəzifə maaşları isə orta hesabla 2,5 dəfə artırılsın.
2. Müəyyən edilsin ki, bu Sərəncamın 1-ci bəndi ilə bağlı maliyyələşdirmə məsələləri Azərbaycan Respublikasının 2004-cü il dövlət büdcəsində nəzərdə tutulmuş vəsait dairəsində həyata keçirilir.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamın 1-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin hərbi qulluqçularının və mülki işçilərinin aylıq vəzifə maaşlarının məbləğlərini təsdiq etsin və bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.
4. Bu Sərəncam 2004-cü il iyulun 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 iyul 2004-cü il


downloaded from KitabYurdu.org

## N.R.Abbasovun Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Namiq Rəşid oğlu **Abbasov** Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 23 iyul 2004-cü il



downloaded from KitabYurdu.org

## E.Ə.Mahmudovun Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Eldar Əhməd oğlu **Mahmudov** Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri təyin edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 23 iyul 2004-cü il



downloaded from KitabYurdu.org

## E.Ə.Mahmudova general-mayor hərbi rütbəsinin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası milli təhlükəsizlik naziri Eldar Əhməd oğlu **Mahmudova** general-mayor hərbi rütbəsi verilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 23 iyul 2004-cü il



downloaded from KitabYurdu.org

## "Kəşfiyyat və əks-kəşfiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

"Kəşfiyyat və əks-kəşfiyyat haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram**:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının "Kəşfiyyat və əks-kəşfiyyat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. "Kəşfiyyat və əks-kəşfiyyat haqqında" Azərbaycan Respublikası Qanununun 6.2-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş kəşfiyyat və əks-kəşfiyyat subyektlərinin səlahiyyət dairəsinə dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4. həmin qanunun 7-ci maddəsində nəzərdə tutulmuş vəzifələrin kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektləri arasında bölgüsü barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.5. həmin qanunun 8-ci maddəsində nəzərdə tutulmuş hüquqların kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektləri arasında bölgüsü barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;



downloaded from KitabYurdu.org

1.6. həmin qanunun 8.1.10-cu maddəsində nəzərdə tutulmuş konspirasiya məqsədi ilə uydurma idarə, müəssisə, təşkilat və digər hüquqi şəxslərin yaradılması qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

